Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

31 OKTYABR 2019-cu il

№ 193 (4091)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ABŞ-ın XARİCİ SİYASƏTİ ERMƏNİ KƏMFÜRSƏT LOBBİSİNİN GİROVLUĞUNDA - BİR GÜNDƏ TÜRK DÜNYASI ƏLEYHİNƏ İKİ LAYİHƏ QƏBUL ETDİRİLDİ...

■ səh. 5 ■

Prezidentdən qadınlara "işləyin ki, maliyyə cəhətdən az asılı olasınız" tövsiyəsinin yönəldici gücü...

■ səh. 13 ■

Düşmənin Azərbaycana müqavimət imkanları tam tükənir - Ermənistanda tam şəxsi heyətdə bircə hərbi hissə də yoxdur

■ səh. 9 ■

Özbəkistanın 30 ildir Ermənistanı "saya salmaması" Paşinyanı dilə gətirdi

■ səh. 6 ■

Ermənistanın müdafiə naziri MDB nazirləri ilə birgə Bakıya niyə gəlmədi...

■ səh. 5 ■

ABŞ Türkiyəni itirir, Ankara isə Moskva ilə birlikdə Yaxın Şərq və Qafqazda güclənir

■ səh. 11 ■

Araz Əlizadənin bitməyən "Cəmo Cəbrayılbəyli təəssübkeşliyi" və "Əhməd Cavad antipatiyası"...

■ səh. 7 ■

Rusiya-Ermənistan hərbi əməkdaşlıq proqramı...

■ səh. 10 ■

Dörd növ "tvoroqlar"da virus aşkarlanıb...

■ səh. 15 ■




■ səh. 8 ■

## Rusiyanın Gümrüdəki 102-ci bazanı gücləndirməsinin sirri - Paşinyanın xəyanətə meyli, ABŞ-ın Gürcüstanda hərbi iştirakının artması...



Əli Kərimli Avroittifaq səfirini pis vəziyyətdə qoydu - ya AXCP sədri yalan danışır, ya da səfir izahat verməl zorundadır...

■ səh. 6 ■

ABŞ konqresmenləri Ərdoğan ailəsi ilə şəxsi davaya başladı - ailənin ABŞ-dakı aktivləri barədə arayış hazırlanacaq

■ səh. 7 ■



Venesiya Komissiyasının narahat bəyanatı - Paşinyanın avtoritar rejimi Konstitusiya Məhkəməsinin müstəqilliyini əzir

■ səh. 10 ■

■ səh. 3 ■

Əli Həsənov KİV-lərə göstərilən dəstəyin şəffaf olduğunu bir daha bəyan etdi



■ səh. 4 ■

"KİVDF-nin maliyyələşdirdiyi qəzetlər böyük oxucu auditoriyasını əhatə edir"



■ səh. 12 ■

"Bakı Dövlət Universitetinin tarixində ən ədalətli rektor Yusif Məmmədəliyev olub"



■ səh. 14 ■

Məhkəmə qərarlarının yeni İcra Məcəlləsi hansı yeniliklər edəcək...



■ səh. 14 ■

Elektrikə əlçatanlığa görə Azərbaycan dünyada ikinci - bu nə deməkdir...



## Azərbaycan ABŞ-a etiraz notası verəcək

**Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimin təmsilçisi Masis Mayilyanın ABŞ ərazisinə daxil olması ilə əlaqədar ölkəmizin ABŞ-dakı səfiri Azərbaycan tərəfinin ciddi etirazını Dövlət Departamentinin diqqətinə çatdırıb.**



Baki-xeber.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış qondarma qurumun "nümayəndəsinin" ABŞ-a getməsi ilə bağlı ünvanlanan sualı cavablandırarkən deyib.

L.Abdullayeva bildirib ki, səfirliyimiz tərəfindən ABŞ Konqresinin Nümayəndələr Palatasının spikerinə, eləcə də rəhbər heyətinə, bir sıra komitə sədrlərinə müvafiq məktublar ünvanlanıb: "Eyni zamanda, ATƏT-in Minsk Qrupunun amerikalı həmsədrinə də bu xüsusda etirazımız çatdırılıb.

Qondarma qurumun təmsilçisinin viza müraciətində yanlış məlumatlar verdiyi halda bu məsələyə ABŞ tərəfindən göz yumulmasının və ABŞ-ın ümumi siyasətinə uyğun gəlməyən bu yanaşmanın təəccüb doğurduğu ABŞ rəsmilərinin qarşısında qaldırılıb.

ABŞ tərəfi M.Mayilyanın səfərinin şəxsi xarakter daşıdığını və administrasiyanın onu dəstəkləmədiyini, onun hər hansı administrasiya "rəsmisi" tərəfindən qəbul edilməyəcəyini bildirib. ABŞ-ın separatçı rejimi tanımamaq siyasətinin dəyişməz olaraq qaldığı vurğulanıb.

Qeyd etmək istərdik ki, sözügedən məsələ ilə bağlı ölkəmizin ABŞ-dakı Səfirliyi tərəfindən Dövlət Departamentinə etiraz notası ünvanlanacaq. Eyni zamanda, Xarici İşlər Nazirliyi ABŞ-ın Bakıdakı Səfirliyinə etirazını bildirəcək".

## Hikmət Hacıyev ABŞ Nümayəndələr Palatasının qondarma "soyqırım" qətnaməsini qərəzli və ədalətsiz adlandırdı

**ABŞ Nümayəndələr Palatasının qondarma erməni soyqırımı haqqında qəbul etdiyi 296 saylı qətnaməni pisləyir, qərəzli və ədalətsiz hesab edirik.**



Baki-xeber.com xəbər verir ki, bunu Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

H.Hacıyev qeyd edib ki, bu qətnamənin heç bir siyasi, hüquqi və tarixi əsası yoxdur, ermənipərəst lobbi qruplarının səyləri nəticəsində qəbul edilib: "Həmin dövrdə baş vermiş hadisələr siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır".

Ermənistan və erməni lobbi dairələri qondarma erməni soyqırımını siyasi möhtəkirlik obyektinə çevirmişlər. Onlar bu məqsədlə ermənilərin Cənubi Qafqazda və digər regionlarda törətdikləri cinayətləri ört-basdır etməyə çalışırlar.

Ona görə də Ermənistan həmin dövrün hadisələrinin Birgə tarixi komissiya tərəfindən araşdırılması barədə Türkiyənin təklifini qəbul etmir.

Tarixin saxtalaşdırılması, "tarixin yenidən yazılması" cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir.

# Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurası iclasının iştirakçılarını qəbul etdi

**Prezident İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib.**



Prezident İlham Əliyev deyib ki, dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi: "Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində bu, Böyük Vətən müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.

Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini - neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə - orta hasilat səviyyəsindən iki dəfə yüksək həddə çatmışdı. Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyümkədə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da, təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir "xadim"ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın.

Bugünkü iclas məsələsinə qayıdaraq, qeyd etmək istəyirəm ki, əlbəttə, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək".



# Bakı Şəhər Baş Polis İdarəsi hüquq müdafiəçisi Oqtay Güləliyevin avtomobillə vurulması xəbərinə aydınlıq gətirdi

**Oktyabrın 29-u saat 17:20 radələrində paytaxtın Nəsimi rayonu ərazisində - 28 May küçəsi ilə Puşkin küçəsinin kəsişməsində taksi fəaliyyəti ilə məşğul olan sürücü Kənan Abdullayevin idarə etdiyi "Hyunadi Accent" markalı avtomobillə yolu keçən piyada, Bakı şəhər sakini Oktay Güləliyev vurulub.**

Sürücü qəza nəticəsində xəsarət almış piyadanı dərhal öz avtomobili ilə Kliniki Tibbi Mərkəzə çatdırıb. İlkin tibbi yardım göstərildikdən sonra O.Güləliyev oradan "City Hospital"a köçürülüb. Hazırda həkimlərin nəzarətində olan xəstənin vəziyyəti orta ağır kimi qiymətləndirilir.

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və nəqliyyat vasitəsinə baxışlar keçirilib, sürücü K.Abdullayevin izahatı alınıb, sərxoşluq və narkoloji müayinələrdən keçirilib.

Faktla əlaqədar Nəsimi RPİ-nin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 263.1-ci (Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılır.

# Əli Həsənov KİV-lərə göstərilən dəstəyin şəffaf olduğunu bir daha bəyan etdi

*"İslahatlar kursu dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq"*

**İslahatlar kursu, Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının, siyasətinin, sosial həyatının bütün sahələr üzrə şəffaflaşdırılması, kölgədən çıxarılması dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq.**

"Trend"-in məlumatına görə, bunu Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yeni brendi olan SƏLİS - Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatında çıxışı zamanı bildirib.

Ə. Həsənov bildirib ki, SƏLİS-in yaradılması, təqdimatının keçirilməsi bundan sonrakı dövrdə həm qrant verənlərin, həm qrant alanların, həm də bu xidməti həyata keçirənlərin işini həm yüngülləşdirəcək, həm də şəffaflaşdıracaq: "Azərbaycan dövləti 27 ildir ki, müstəqilliyini yaşayır, 1993-cü ildən başlayaraq Ümummilli Lider başda olmaqla, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinin iştirakçılarıyıq. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin ciddi dəstəyi ilə Konstitusiya qəbul olundu, çoxpartiyalı sistem əsasında parlament seçkiləri keçirildi və Azərbaycan dövlətinin gələcək inkişafının təməl prinsipləri müəyyən olundu. Bu təməl prinsiplərin siyasi yöndə əsas strategiyası ondan ibarət idi ki, Azərbaycan demokratik inkişaf, plüralist cəmiyyət quruculuğu, hakimiyyət uğrunda yarışın çoxpartiyalı sistemlilik əsasında həyata keçirilməsi, bazar iqtisadiyyatı kursunu seçdi, vətəndaş cəmiyyətinin formalaşması normalarını seçdi və bərqərar etdi".

Prezidentin köməkçisinin sözlərinə görə, birinci onillik, 1993-2003-cü illər müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesi idi: "Dövlətin qarşısında çox mühüm və təxirəsalınmaz vəzifələr var idi. Buraya dövlətin təhlükəsizliyinin təmin olunması, ordu quruculuğunun həyata keçirilməsi, Əsrin Müqaviləsinin imzalanması və həyata keçirilməsi, xarici tərəfdaş dövlətlərin tapılması və Azərbaycanın gələcək strateji inkişafının təməli olan neft-qaz kontraktlarının imzalanıb həyata keçirilməsi, Azərbaycanın beynəlxalq aləmlə münasibətlərinin qurulması, tərəfdaş ölkələrin sayının artırılması, qaçqın və məcburi köçkünə çevrilmiş vətəndaşların ən vacib problemlərinin həll olunması, məskunlaşdırılması daxildir. 2003-cü ildən Prezident İlham Əliyev Azərbaycana rəhbərlik edir. Prezident İlham Əliyevin bəyan etdiyi və həyata keçirdiyi kurs müstəqil Azərbaycanın modernləşdirilməsi, müasirləşdirilməsi və onun inkişafının qlobal dünyanın çağırışlarına uyğun olaraq yeni trendlər əsasında zənginləşdirilərək davam etdirilməsidir. Zaman var idi ki, xaricdə belə konfrans zallarını, bu tip elektron xidmətləri görəndə az qalırdıq ki, heyrətdən boğulaq. Bu gün Azərbaycan dövləti elə səviyyəyə gəlib çatıb ki, nəinki elektron hökumətdən, elektron xilmətlərdən, hətta rəqəmsal hökumət və rəqəmsal xidmətdən bəhs edə bilir. Prezident İlham Əliyevin 3 prezidentlik dövrü Azərbaycanın modernləşdirilməsi, ictimai, siyasi, sosial, iqtisadi həyatının yenidən qurulması və ölkədə vətəndaş məmnunluğunun təmin olunmasını əhatə etdi. Vətəndaş məmnunluğu ona göstərilən xidmətlərin asanlaşdırılması, rahatlaşdırılması və hamı üçün məqbul formaya salınmasıdır".



Ə.Həsənov nəzərə çatdırıb ki, vətəndaşların məmnunluğunun təməlində onun sosial-iqtisadi və digər problemlərinin həlli, firavan həyatının təmin olunması, təhlükəsizliyinin təmin olunması, təşəbbüslərinin dəstəklənməsi dayanır: "Bu mərhələdə yaranan xidmətlərin, o cümlədən bu gün təqdimatında iştirak etdiyimiz SƏLİS-in də təməlində bu dövrün vətəndaş cəmiyyəti quruculuğu dayanır. 2007-2008-ci illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə iki mühüm konsepsiya qəbul olundu. Bu konsepsiyalardan biri QHT-lərə, yeni vətəndaş təşəbbüslərinə dəstək idi. Bu konsepsiyanı reallaşdırmaq üçünq QHT-lərə Dövlət Dəstəyi Şurası yaradıldı. Şura şəffaf şəkildə formalaşdırıldı, üzvləri müxtəlif QHT-lərin təqdimatı ilə seçildi. 10 ildən yuxarıdır ki, Şura fəaliyyət göstərir və günü-gündən fəaliyyətini təkmilləşdirir, vətəndaşlara göstərdiyi xidmətləri müasir dünya səviyyəsinə gətirir, elektronlaşdırır və bu xidmətlərdə şəffaflığı təmin edir. Digər konsepsiya KİV-lərin inkişafına dövlət dəstəyi konsepsiyası və bununla bağlı Fondun (KİVDF) yaradılmasıdır. Fondun Müşahidə Şurası da KİV-lərin təqdim etdiyi siyahılar əsasında, şəffaf qaydada formalaşır, Prezident İlham Əliyev onları təyin edir. Mən bu gün Şura və Fondun fəaliyyətlərini müqayisə etmək istəmirəm. Amma görünən budur ki, Şura elektron xidmətə KİVDF-dən qabaq keçdi. Bu, yaxşı bir nümunədir. Düşünürəm ki, KİVDF də bundan sonra KİV-lərə göstərilən dəstəyi təmas olmadan, elektron hökumət vasitəsi ilə həyata keçirə, bu xidməti yarada bilər. Ən əsası da KİV-lərə göstərilən dəstək də şəffafdır, orada qaranlıq bir məqam yoxdur. Hər bir qəzetə ayrılan yardım bəllidir, bu, ilin əvvəlində Fondun Müşahidə Şurasında redaktorların iştirakı ilə müzakirə olunur. Əsas məsələ jurnalist müsabiqələrinin keçirilməsidir. Fond ildə iki dəfə müsabiqə keçirir, hər müsabiqədə çoxlu sayda jurnalist mükafatlandırılır. O prosesi elektronlaşdırmağın vaxtı gəlib çatıb".

Prezidentin köməkçisi vurğulayıb ki, 15 il ərzində iqtisadi, siyasi, sosial həyatın bütün sahələri yenilənib: "Nəqliyyat infrastrukturundan tutmuş mədəniyyət ocaqlarımıza, institutlarımıza, xəstəxanalarımıza, məktəblərimizə, yollarımıza qədər hər şey təzələnib. Bu gün Azərbaycan dünyanın inkişaf etməkdə olan ölkələri sırasında üçüncü yerdə dayanır. Azərbaycan bütün reytinq sorğularında öncül mövqeləri tutur. Bu da Prezident İlham Əliyevin 15 ildə vətəndaş məmnunluğu istiqamətində həyata keçirdiyi tədbirlərdir və bunun nəticələrini görürük. 2018-ci il prezident seçkilərindən sonra Prezident İlham Əliyev yeni bir kurs elan etdi. Bu gün sizinlə birlikdə o kursun nəticələrini görürük. İlk növbədə bu kurs ictimai, siyasi, sosial, iqtisadi həyatımızın şəffaflaşdırılmasından ibarət idi. Bütün postsovet ölkələrində, o cümlədən dünya ölkələrində olduğu kimi, Azərbaycanda da hələ kölgə iqtisadiyyatı mövcuddur. Hələ də ayrı-ayrı iş adamları dövlətin vergilərini tam şəkildə ödəmir, ödəmək də istəmir. Ayrı-ayrı sahələrdə monopoliya mövcuddur və monopoliyanın bəzi xətləri dövlət qulluqçularına gedib çıxır. Keçən dəfə Prezident İlham Əliyev iqisadi müşavirədə bu məsələlərə toxundu. İslahatlar kursu, Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının, siyasətinin, sosial həyatının bütün sahələr üzrə şəffaflaşdırılması, kölgədən çıxarılması dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq. Şəffaflaşdırma bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar kursunun əsasını təşkil edir. Bu islahatlar kursu dövlət idarəçilik sisteminin struktur islahatlarından, idarəçilik sisteminin təkmilləşdirilməsindən başladı. Bu gün zərurəti şübhə doğuran qurumların ləğv olunması, birləşdirilməsi, orada çalışan insanların digər lazım olan sahələrə yerləşdirilməsi həyata keçirildi.

Bunun ardınca iqtisadi islahatların konturları elan olundu. Dövlət büdcəsindən tutmuş xidmət sahələrinə, vergi yığımından tutmuş sahibkarlıq sahəsinə qədər həm struktur, həm dövlət idarəçilik sisteminin, o cümlədən sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi həyata keçirilir. Bu gün bu şəffaflaşdırma elə bir mərhələyə qədəm qoyub ki, hər bir vətəndaş QHT-lər, KİV-lər, millət vəkilləri vasitəsi ilə bu prosesdə iştirak edir".

# Bakı dünya astronavtika rəqabətində 4 şəhərin arasında 1-ci yeri tutdu

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul edib.**



## ***Məhərrəm Zülfüqarlı:*** *"Bu onu göstərir ki, Azərbaycan kosmik ölkələr sırasındadır"*

Ölkə başçısının sözlərinə görə, bu, çox böyük hadisədir və bizim böyük qələbəmizdir: "Bilirəm ki, "Azərkosmos" və digər dövlət qurumları bu Konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstərmişlər. Bu Konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, Konqresin işində Amerikanın Vitse-prezidenti cənab Pens iştirak etmişdir. Növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir".

Prezident İlham Əliyevin fikrincə, bu qələbə bir daha ona görə önəmlidir ki, bizim çox güclü rəqiblərimiz var idi: "Dörd şəhər Konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var".

## *"Dörd şəhər arasında Bakının seçilməsi böyük uğurdur"*

Bütövlükdə, Bakının 4 şəhər arasında 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanması nə deməkdir? Bunun əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, belə bir tədbirə Azərbaycanın evsahibliyi etmək hüququ əldə etməsi çox böyük hadisədir: "Bu onu göstərir ki, Azərbaycan kosmik ölkələr sırasındadır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın süni peykləri orbitdə fırlanır. Həmin peyklər Azərbaycanla yanaşı, digər ölkələrə də xidmət edir. Bununla bağlı bizim ayrıca dövlət qurumu da var. Bütün bunlar onu göstərir ki, Azərbaycan belə konfranslara evsahibliyi etməyə iddialıdır. Dörd şəhər arasında Bakının seçilməsi böyük uğurdur. Bu onu göstərir ki, Azərbaycanın buna imkanı da var, mütəxəssisləri də.

Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək bizə nə verəcək? Bu, Azərbaycanın beynəlxalq imicinin artmasına kömək edəcək. Ölkəmizin dünyada daha yaxşı tanınmasına xidmət edəcək. Kosmosdan sülh məqsədləri üçün istifadə edən dövlət kimi tanınmasına xidmət edəcək. Bu da hamımızı sevindirir. Çünki bütün bunlar Azərbaycanın uğurudur".

***Vidadi ORDAHALLI***

# Bəhruz Quliyev: "KİVDF-nin maliyyələşdirdiyi qəzetlər böyük oxucu auditoriyasını əhatə edir"

**"Bu gün Azərbaycanda aparılan uğurlu islahatlar, eyni zamanda, mətbuata da öz təsirini göstərməkdədir. Xüsusilə medianın inkişafı və tərəqqisi yönündə atılan hər bir addımlar bilavasitə dövlətin, cənab Prezidentin bu sahəyə göstərdiyi diqqət və qayğısının məntiqi nəticəsidir".**



Baki-xeber.com xəbər verir ki, bu fikirləri "Səs" qəzetinin baş redaktoru, media eksperti Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) əleyhinə qərəzli şəkildə kampaniya aparanlara münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, kimlərsə öz subyektiv fikirlərini deyə bilər, lakin bu o demək deyil ki, həmin şəxslər istədikləri mövzulara qərəzli yanaşma edərək, öz yanlış fikirlərini ictimai rəyə çatdırsınlar: "O da sirr deyil ki, Azərbaycan mətbuatına qarşı qarayaxma kampaniyaları aparan tərəflər var ki, onlar mediaya qarşı tənqidçi deyil, məhz təhdidçi mövqelərdə dayanıblar, ölkədə aparılan uğurlu mətbuat siyasətini hədəfə alıblar. Onlar həmin insanlardırlar ki, daim öz maddi maraqlarını güdüblər, həmin maraqlarına görə baxışlarını dəyişiblər ki, indi də bu cür məntiqsiz, reallığa söykənməyən iddialarını irəli sürməkdədirlər".

"Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanda mətbuat siyasəti dövlətin konkret proqramları ilə, cənab Prezident İlham Əliyevin şəxsi iradəsi ilə formalaşıb, eyni zamanda, Konstitusiyamızda mətbuatın fəaliyyətini tənzimləyən müddəalar öz əksini tapıb, Qanunlar qəbul edilib, bir sözlə, hüquqi baza formalaşdırılıb", deyən baş redaktor əlavə edib ki, məhz bu baxımdan, ölkə mətbuatının inkişafı üçün dövlət başçımız tərəfindən çoxsaylı sərəncamlar verilib, Dövlət Proqramları qəbul olunub: "Onlardan biri də məhz Azərbaycan respublikası prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondudur ki, bu Fond vasitəsilə Dövlət mətbuata qayğı göstərərək, maliyyə yardımı etməklə yanaşı söz, ifadə, fikir azadlığının qorunmasına öz töhfəsini verir. Lazım gələndə isə cənab İlham Əliyev bu məsələdə də öz şəxsi iradəsini də ortaya qoyub. Əminliklə deyə bilərik ki, Azərbaycan mətbuatı dünya mətbuatı ilə rəqabət apara biləcək səviyyədədir".

Ekspertə görə, indi də bəzi qruplar və buna rəvac verənlər öz şəxsi maliyyə və siyasi maraqlarını həyata keçirmək üçün Azərbaycanın ən aparıcı standartlara sahib olan mediasını hədəfə almaqla, əslində özlərini ifşa etmiş olurlar: "Amma fakt budur ki, KİVDF-ni tənqid edənlərin nə maliyyələşmə prosedurundan, nə də Fondun qoyduğu kriteriyalardan xəbərləri belə yoxdur. Yazılı mətbuata maliyyə ayrılarkən qəzetin ictimai nüfuzu, icimai şüura təsiri, oxucu auditoriyasının genişliyi, tirajı və s. nəzərə alınır. Yəni tənqid reallığa soykənməli, obyektiv olmalıdır. Bəzi tənqidçi dairələr anlamalıdırlar ki, KİVDF tərəfindən verilən yardımlar bilavasitə medianın, o cümlədən yazılı medianın uğurlu perspektivlərini müəyyənləşdirir, həmçinin mövcud kriteriyaları önə çıxarmış olur. Bu kriteriyaların hər biri ciddi amillərə söykənir, eyni zamanda, mətbuatımızın ciddiliyini isbatlamaqdadır. Belə hesab edirəm ki, KİVDF-nin də bu sahədə apardığı işlər kifayət qədər obyektiv, şəffaf və qərəzdən kənardır. Ayrılan maliyyələr də həmin amallara hesablanır, bu istiqamətlər üçün də nəzərdə tutulur. Deyərdim ki, həmin adamların qeyri-müəyyənlikləri elə yazılı mətbuata göstərdikləri yanlış baxışlarından da görünməkdədir. Əgər bu gün KİVDF hər hansı qəzetlərə maliyyə ayırmırsa, deməli həmin qəzetlər azad rəqabətə davam gətirə bilməyiblər".

Ekspert sonda onu da bildirib ki, KİVDF "Səs" qəzetinə də maliyyə ayırır: "Bu maliyyə vasitəsi ilə biz daha çevik, operativ fəaliyyət göstərir, həmçinin etibarlı, qiymətli oxucularımızın qarşısına gündəlik saylarımızla çıxırıq, onların tələbatlarını yazılarımız, məqalələrimiz, açıqlama və şərhlərimizlə yüksək keyfiyyətlə ödəyirik. Bu səbəbdən, bəzi adamlar hər hansı fikir, rəy bildirərkən, ümumi deyil, konkret faktlara əsaslanaraq çıxış etməlidirlər ki, mən düşünmürəm onlarda belə faktlar olsun. Çünki onların etdikləri yanaşma sadəcə qərəzdən və böhtandan başqa bir şey deyil".

# ABŞ-ın xarici siyasəti erməni kəmfürsət lobbisinin girovluğunda - bir gündə Türk dünyası əleyhinə iki layihə qəbul etdirildi...

**ABŞ Konqresinin Nümayəndələr Palatası qondarma "erməni soyqırımı"nı rəsmi olaraq tanıyan qanun layihəsini təsdiq edib. 405 konqresmen qətnamənin lehinə, cəmi 11 nəfər əleyhinə səs verib. Sənəd Nümayəndələr Palatasına demokrat Adam Şiff tərəfindən təqdim edilib.**



## *Qabil Hüseynli: "Eyni gündə Türkiyəyə qarşı sanksiya qərarının da verilməsi olduqca zalım və insafsız münasibətin göstəricisidir"*

Qəbul edilən layihə Senatda müzakirəyə çıxarılacaq.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu öz "Tvitter" mikrobloqunda qətnamənin qəbul edilməsini tənqid edib. O, konqresmenlərin qərarını utancverici hesab edib və bunu tarixdən siyasi məqsədlərə çatmaq üçün istifadə etmək cəhdi hesab edib. Qeyd edək ki, eyni gündə ABŞ Konqresinin Nümayəndələr Palatası Suriyanın şimal-şərqində antiterror əməliyyatına görə rəsmi Ankaraya və onun maliyyə sektoruna qarşı sanksiyaların tətbiqini bəyənib.

Türkiyənin Xarici İşlər Nazirliyi Amerika Birləşmiş Ştatlarının Nümayəndələr Palatası tərəfindən rəsmi Ankaraya qarşı sanksiyalar haqqında qanun layihəsinin qəbulunu da pisləyib.

Bununla bağlı bəyanat Türkiyənin xarici siyasət idarəsinin saytında yayılıb: "Barış pınarı" əməliyyatı ilə əlaqədar ABŞ-ın Nümayəndələr Palatasının Türkiyəyə qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsinin qəbulunu qətiyyətlə pisləyirik".

Bildirilir ki, qanun layihəsi NATO ittifaqının ruhuna uyğun deyil və oktyabrın 17-də ABŞ administrasiyası ilə Suriya üzrə nail olunmuş razılaşmaya ziddir.

ABŞ-ın ənənəvi müttəfiqi olan Türkiyəyə və bütövlükdə, bütün Türk dünyasına qarşı nümayiş etdirdiyi bu qərəzli mövqeyində erməni lobbisinin izi açıq görünür. ABŞ-da güclü olan həmin lobbi daim belə qərarların qəbuluna cəhd etsə də, buna nail ola bilmirdi. Görünür, daim fürsətcil davranan ermənilər bu məsələdə xəbisliklərini həyata keçiriblər. Qəbul edilən hər iki qərar maraqlı zamana təsadüf edir. Suriyada Türkiyənin nümayiş etdirdiyi qətiyyətli mövqe ABŞ-la onun üz-üzə gətirməli oldu, digər tərəfdən isə Bakıdakı icazəsiz küçə mitinqləri ilə bağlı ABŞ-ın mövqeyi ilə Azərbaycanın rəsmi mövqeyi arasında ziddiyyətin olması ermənilərin kəmfürsət davranışı üçün zəmin yaradıb. Bəs ABŞ niyə imkan verdi ki, xarici siyasət kursu erməni lobbisinin girovluğuna düşsün?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ-ın qəbul etdiyi bu qərarlar bütün Türk dünyasına qarşı yönəlib: "Nə qədər ki, ABŞ-ın başında Tramp kimi səriştəsiz adam dayanıb, həmin ölkənin erməni, hətta yunan lobbisinin də təsiri altına düşməsi mümkündür. Qəbul edilən qəraraların mahiyyəti onu deməyə əsas verir ki, burada ermənilərin və onların lobbisinin təsiri altında olan konqresmenlərin gərgin əməyi olub. Çünki belə bir qərarın qəbulu onlara lazım ola bilməzdi. Belə cəhdlər daim olub, amma ABŞ Türkiyə ilə olan əlaqələrə görə ermənilərin ağzından vurdu. Görünür, arxadan xəncər sancmaq üçün uyğun zaman tapıblar.

> *"Bir daha sübut olunur ki, ABŞ diplomatiyası ermənilərə rəğbətlə yanaşı, həm də ciddi xristian təəssübkeşliyi nümayiş etdirir"*

Bir əsrdən artıq bir zamanda baş vermiş hadisə ilə bağlı dünən seçilən konqresmen hansı bilgiyə sahib ola bilər ki, həmin hadisəyə də qiymət versin? Buna qiyməti tarixçilər verməlidir, konqresmenlər yox. Bununla yanaşı, eyni gündə Türkiyəyə qarşı sanksiya qərarının da verilməsi olduqca zalım və insafsız münasibətin göstəricisidir. Azərbaycana qarşı da müəyyən addımların atıldığını hiss edirik. Ancaq bununla nəyəsə nail ola bilməzlər. Ürəkləri istəyən qədər bəyanat versinlər, heç nə dəyişən deyil. Buna baxmayaraq, Türkiyə ilə bağlı qəbul olunan qərarları biz haqsız sayırıq və bunu bütün Türk dünyasına olan hörmətsizlik kimi qəbul edirik. Ən maraqlısı isə budur ki, bu cür ədalətsiz qərarları həmsədr ölkə Zəngilanın işğalı günündə qəbul edir. Təsadüf ola bilməz, hərtərəfli şəkildə ermənilərə sürpriz edirlər. Bir daha sübut olunur ki, ABŞ diplomatiyası ermənilərə rəğbətlə yanaşı, həm də ciddi xristian təəssübkeşliyi nümayiş etdirir. Xocalı soyqırımının baş verdiyi məqamdan sonra ABŞ ermənilərin guya soyqırıma məruz qaldıqlarını bəyan edir. Bu cür ikili standartlarla ABŞ uzağa gedə bilməz. Bunlar bir daha göstərir ki, ABŞ-ın ermənilərin təsiri ilə qəbul etdiyi qərarlar heç bir beynəlxalq normaya sığmır".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Ermənistanın Müdafiə naziri MDB nazirləri ilə birgə Bakıya niyə gəlmədi...

**Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası işə başlayıb. Tədbirdə Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqu, Belarus Respublikasının Müdafiə naziri, general-leytenant Andrey Ravkov, Qazaxıstan Respublikasının Müdafiə naziri, general-mayor Nurlan Yermekbayev, Özbəkistan Respublikasının Müdafiə naziri, general-mayor Bahodir Kurbanov, Tacikistan Respublikasının Müdafiə naziri, general-polkovnik Mirzo Şerali və Qırğızıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Rayimberdi Duyşenbiyev və MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev iştirak edirlər.**



## *Hatəm Cabbarlı: "Əslində, bununla Ermənistan ən böyük hörmətsizliyi elə MDB ölkələrinə edib"*

İclasda Şura üzvləri MDB ölkələrinin 2025-ci ilədək hərbi əməkdaşlıq konsepsiyalarını və MDB üzvü olan dövlətlərin Müdafiə nazirliklərinin 2025-ci ilədək radiasiya, kimyəvi və bioloji vəziyyət ilə əlaqədar birgə monitorinq və qiymətləndirmə sisteminin hazırlanmasına dair əsas istiqamətləri nəzərdən keçiriblər.

Bundan başqa, iclasda "Beynəlxalq Ordu Oyunları-2019"un yekunları, MDB ölkələrinin silahlı qüvvələri üçün zabit kadrlarının hazırlanması, "Elmə başlanğıc" İnnovativ Elmi İdeyalar Beynəlxalq Festivalının keçirilməsi və 2-ci Dünya Müharibəsində qələbənin 75 illiyinin qeyd olunmasına hazırlıq məsələləri müzakirə olunub. İclasda cari hərbi əməkdaşlıq və qarşıda duran digər məsələlərin də müzakirə olunduğu bildirilir.

Maraqlıdır ki, Ermənistanın Müdafiə naziri David Tonoyan tədbirdə iştirak etməkdən imtina edib. Tədbirin gündəliyindən də görünür ki, burada Dağlıq Qarabağ məsələsinə aid nəsə müzakirə olunmayacaq. Eyni zamanda, bu cür tədbirlə bağlı Tonoyanın hər hansı bir təhlükəsizlik problemi də ola bilməz. Onda isə Tonoyanın Bakıya gəlməkdən imtinası hansı məqsədlə ola bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bakıda MDB ölkələri müdafiə nazirlərinin iştirakı ilə geniş tədbir keçirilməsi təqdirəlayiqdir və ölkəmizə olan etibarın növbəti göstəricisidir: "Tədbirdə bütün üzv ölkələrin müdafiə nazirləri iştirak etsə də, Ermənistanın Müdafiə naziri iştirak etməkdən boyun qaçırıb. Daha əvvəllər Bakıda analoji tədbirlər keçiriləndə Ermənistanın rəsmiləri tədbirlərə qatılırdılar. David Tonoyanın iştirak etməməsi Ermənistanın yeni aqressiv yanaşmasını ortaya qoyur. Sübut olunur ki, bütün təhlükəsizlik tədbirlərinə baxmayaraq, Ermənistan heç bir rəsmisinin Azərbaycana gəlməsini arzulamır. Bu onların Azərbaycanla münasibətləri gərginləşdirməkdə necə maraqlı olduqlarının bir nümunəsidir. Bununla onlar Müdafiə nazirinin təhlükəsizliyi ilə bağlı məsələni gündəmə gətirmək istəyirlər. Ancaq bu, ucuz bir piardır. Çünki Azərbaycanda dəfələrlə erməni rəsmilərinin iştirak etdiyi tədbirlər olub və onların heç birində analoji hadisə yaşanmayıb. Bu, bir daha sübut edir ki, Ermənistan heç bir konstruktivliyə meylli deyil.

> *"...ona lazım olan yerini göstərsinlər"*

Əksinə, münasibətlərin gərginləşməsinə xidmət edən addımlar atır. Əslində, bununla Ermənistan ən böyük hörmətsizliyi elə MDB ölkələrinə edib. Yaxşı olardı ki, Tonoyanın bu hərəkətinə digər MDB ölkələri obyektiv münasibət bildirib ona lazım olan yerini göstərsinlər. Çünki bu, Ermənistanın beynəlxalq təşkilatlara etdiyi ilk hörmətsizliyi deyil. Yadınızdadırsa, bundan əvvəl analoji addımı KTMT-yə qarşı atdılar. Oranın dönəm sədrini tutub türməyə saldılar. Ciddi reaksiya verilməlidir ki, Ermənistan bu tip hörmətsiz addımlarına son qoysun".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Bakıda qanunsuz aksiya keçirməyə cəhd edən AXCP və "Milli Şura" noyabrın 2-də yenidən mitinq keçirmək qərarı verib. Yenə də şəhərin mərkəzindəki meydanları tələb edirlər. Artıq hökumət radikalların bu istəyinə dair rəsmi mövqeyini açıqlayıb.**

# Əli Kərimli Avroittifaq səfirini pis vəziyyətdə qoydu - ya AXCP sədri yalan danışır, ya da səfir izahat verməli zorundadır...

## *Yeganə Hacıyeva: "Əli Kərimli AB səfirinin fikirlərini təhrif edir"*



Son nəticə bundan ibarətdir ki, müxalifətə aksiyanı Lökbatanda keçirmək təklif edilir. Ancaq o da məlumdur ki, radikallar hakimiyyətin bundan əvvəl təqdim etdiyi marşrurtları bəyənməyib, yalnız şəhərin mərkəzini tələb edir və istədiyi məkanda aksiya keçirməyə cəhd edirlər. Təbii ki, bu cür qanunsuz hərəkətlərin qarşısı alınmalıdır. Polis də qanunauyğun şəkildə davranıb, asayişin qorunması istiqamətində addımlar atıb.

Maraqlıdır ki, qanunsuz aksiyaların əsas təşkilatçısı olan Əli Kərimli özünün "Facebook" səhifəsində paylaşdığı məlumatda Avropa Birliyini də bu məsələyə qatmaq istəyib: "Bu gün Avropa Birliyinin Azərbaycandakı səfiri Kestutis Yankauskas ilə görüşümüz oldu. 19 oktyabr mitinqi zamanı baş verənləri ətraflı müzakirə etdik. Səfir AB-nin 19 oktyabr gecəsi açıqladığı rəsmi mövqeyi bir daha vurğuladı. Avropa Birliyi toplaşmaq azadlığını fundamental insan hüquqlarından biri sayır və gözləyir ki, Azərbaycan hakimiyyəti özünün beynəlxalq öhdəliklərinə uyğun şəkildə bu hüququn tam tətbiq olunmasını təmin edəcək. AB hesab edir ki, aksiyanın dağıdılması və iştirakçıların saxlanması üçün aşırı gücdən istifadə edildiyi haqda məlumatlar araşdırılmalıdır. AB, həmçinin, hakimiyyəti həbs olunan dinc etirazçıları azad etməyə çağırır".

Əli Kərimlinin paylaşdığı məlumatdan iki nəticəni hasil etmək mümkündür. Belə bir görüşün baş tutması tam mümkündür və buna kimsə şübhə etmir. Ancaq görüşdə aparılan müzakirələr həqiqətən Ə.Kərimlinin təsvir etdiyi kimi olub? Əgər səfir, həqiqətən, Ə.Kərimlinin dediyi kimi, yalnız aksiyanın dağıdılması və iştirakçıların saxlanması üçün aşırı gücdən istifadə edildiyi haqda məlumatların araşdırılmasını Azərbaycan tərəfindən tələb edirsə, bu, obyektiv mövqe sayıla bilməz. Diqqət edək, Ə.Kərimli iddia edir ki, AB-nin səfiri aksiyaların təşkilindəki qanunsuz davranışları deyil, yalnız polisin davranışlarının araşdırılmasını istəyib. Son nəticə budur ki, ya Ə.Kərimli diplomatın fikirlərini təhrif edir, yox, səfir belə mövqe ifadə

*"Əminəm ki, onun bu fikirləri ilə bağlı Avropa Birliyinin təkzibi olacaq"*

edibsə, onda mütləq məsələyə izahat verməlidir. Səfirin yalnız belə mövqedən çıxış etdiyi inandırıcı sayıla bilərmi?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ə.Kərimlinin ifadə etdiyi mövqe ilə tanışdır: "Düzü, buna təəccüb etdim. Avropa Birliyinin Bakı ofisinin rəhbərinin Ə.Kərimli ilə görüşü mitinqlərlə bağlı olmayıb. Ola bilər ki, görüşün məhz bu ərəfəyə düşməsindən Ə.Kərimli manipulyasiya edir. Avropa Birliyi Azərbaycanda olan bütün müxalif partiyalar və vətəndaş cəmiyyəti nümayəndələri ilə mütəmadi görüşür. Bu, ümumi bir praktikadır. AB ofisi təmsil olunduğu bütün ölkələrdə bu praktikadan istifadə edir. Düşünürəm ki, Ə.Kərimli AB-nin səfirinin fikirlərini təhrif edir. Çünki AB mitinqlərlə bağlı heç bir monitorinq aparmayıb. Bu mandat ona yox, ATƏT-ə aiddir. ATƏT-in də Bakı ofisi fəaliyyət göstərmədiyi üçün, belə bir monitorinq olmayıb. Bu ilk belə hal deyil. Ə.Kərimli dəfələrlə beynəlxalq təşkilatların fikirlərini təhrif edib. Konkret faktlarla deyə bilərəm ki, belə hallar 2011, 2012, 2013, 2015, 2018-ci illərdə baş verib.

Ona və partiyasına Qərbdən olan neqativ münasibətin kökündə məhz bu amil durur. Ə.Kərimlinin belə bir açıqlama ilə çıxış etməsinin bir məqsədi də bundan ibarətdir ki, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toyo Klaar Bakıdadır. Onun diqqətini özünə çəkmək istəyir. Dərin fikirləşəndə məlum olur ki, Ə.Kərimli və "Milli Şura" Azərbaycanın Avropa ilə yaxınlaşmasının qarşısını almaq istəyir. Əminəm ki, onun bu fikirləri ilə bağlı Avropa Birliyinin təkzibi olacaq. O, AB-ni daxili proseslərə cəlb etmək istəyir, bu isə onların mandatına aid olmayan məsələdir".

*Məhəmmədəli QƏRİBLİ*

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiyanın "Kommersant" qəzetinə geniş müsahibəsində bir sıra maraqlı etiraflar etmək məcburiyyətində qalıb. Rusiyaya doğru ciddi reveransların edildiyi, hətta bəzi məqamlarda Moskvanın şantaj olunduğu müsahibədə Paşinyanın Azərbaycanın Avrasiya İqtisadi Birliyinə müşahidəçi kimi qatılmaq ehtimalına verdiyi cavab da diqqət çəkib.**

# Özbəkistanın 30 ildir Ermənistanı "saya salmaması" Paşinyanı dilə gətirdi

## *Əhəd Məmmədli: "Birmənalı olaraq qeyd edirəm ki, Özbəkistanın Ermənistanla belə soyuq olmasının kökündə Dağlıq Qarabağ problemi və ondan doğan nəticələr durub"*



Bu xüsusda Paşinyan Özbəkistanın Avrasiya İqtisadi Birliyinə qoşulacağına əminliyini ifadə edib. Ancaq birdən-birə Paşinyan Özbəkistandan olan narazılığını dilə gətirib. Deyib ki, 30 il ərzində Ermənistan və Özbəkistan rəsmiləri arasında bir görüş belə olmayıb. Paşinyan, faktiki olaraq, Özbəkistanın Ermənistanla heç bir diplomatik münasibətlər qurmadığının səbəblərinə aydınlıq gətirməyib. Bəzi ekspertlər hesab edirlər ki, bunun səbəbi aydındır.Özbəkistanın mərhum dövlət başçısı İslam Kərimov Azərbaycan torpaqlarının işğalını qəbul etmirdi. Paşinyan bildirib ki, Özbəkistanın yeni Prezidenti ilə MDB dövlət başçılarının Aşqabad sammiti çərçivəsində görüşüb. Bu görüşdə qarşılıqlı səfərlər razılaşdırılıb. Maraqlıdır ki, Türk Şurasının Bakıdakı toplantısında Özbəkistan Prezidenti Şavkat Mirziyoyev birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib. Bu baxımdan da maraqlıdır, Özbəkistanın indiyə kimi tutduğu antiermәni mövqeyi nə ilə izah oluna bilər və yeni Prezident İslam Kərimovun bu istiqamətdəki mövqeyini davam etdirəcəkmi?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İslam Kərimovun zamanında olan bu proses hələ də davam edir: "İslam Kərimov nə qədər birmənalı qarşılanmayan fiqur olsa da, onun Ermənistanla bağlı tutduğu mövqe sərt və korrekt olub. Çox maraqlı olan bilirsiniz nədir? Bu məsələ niyə indiyə qədər Azərbaycanda geniş təbliğ edilməyib? Düzdür, bunu çox az sayda adam bilib, amma ideoloji mübarizənin də aparıldığı bir vaxtda Özbəkistanın belə mövqeyi cəmiyyətə geniş aşılanmalıydı. Niyə biz Paşinyanın açıqlamasından sonra bu məsələyə diqqət yönəltməyə başladıq? Burada bizim hər birimizin təqsiri var. Mən konkret günahkar axtarmaq fikrindən uzağam. Çünki qardaş bir ölkənin bizə etdiyi bu jestin təbliğini kimsə qadağan etməyib. Birmənalı olaraq qeyd edirəm ki, Özbəkistanın Ermənistanla belə soyuq olmasının kökündə Dağlıq Qarabağ problemi və ondan doğan nəticələr durub. İslam Kərimovun bir millətçi damarı olub. Məhz onun prezidentliyi dönəmində Əmir Teymura Daşkəndin mərkəzində böyük bir heykəl qoyuldu. Bununla o, özbək türk dövlətçiliyinin məhz Əmir Teymura söykəndiyini demək istəmişdi. Ancaq görürsünüz, biz hələ də Məhəmməd şah Qacara, Nadir şaha sahib çıxmaqdan sanki çəkinirik. Bu baxımdan da Ermənistana qarşı bəslənən sərt münasibətin kökündə milli və dini təəssübkeşlik amilinin dayandığına şübhə qalmır. Düzdür, onun Əndircan hadisələrindən sonra Türkiyə ilə münasibətləri kəskinləşdi. Ancaq biz gördük ki, onun Azərbaycanla münasibətləri çox səmimi olub. Türkmənistan, Qırğızıstanın tutmadığı mövqeyi o tuturdu. Biz bunu təqdir edib, geniş təbliğ etməliyik ki, digər türkdilli ölkələr üçün də örnək olsun. Niyə biz Qərb və İsraildən olunan balaca bir jesti şişirdirik, ancaq bu qədər böyüklüyündə olan məsələnin üstündən sükutla keçirik? İnanırıq ki, indiki Prezident Ş.Mirziyoyev də öz sələfinin tutduğu yolu davam etdirəcək.

*"İnanırıq ki, indiki Prezident Şavkat Mirziyoyev də öz sələfinin tutduğu yolu davam etdirəcək"*

Çünki onun da addımlarında kökə bağlılıq nəzərə çarpır. Hakimiyyətə gələn kimi Türkiyəyə olan kiçik narazılığın aradan qaldırılmasına nail oldu. İnanırıq ki, Azərbaycanla olan münasibətlər də daha yaxşı səviyyəyə qaldırılacaq. Yaxşı olardı ki, digər Orta Asiya respublikaları da öz soyköklərinə uyğun davranış nümayiş etdirsinlər".

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ konqresmenləri Ərdoğan ailəsi ilə şəxsi davaya başladı - ailənin ABŞ-dakı aktivləri barədə arayış hazırlanacaq

**ABŞ Konqresinin Nümayəndələr Palatasının Türkiyəyə qarşı sanksiya layihəsini qəbul etməsindən sonra Prezident Rəcəb Tayyib Ərdoğanın sahib olduğu mülkiyyətin araşdırılacağı açıqlanıb. Bu barədə Türkiyə KİV-i məlumat yayıb.**




***Elçin Mirzəbəyli:** "Burada söhbət təkcə Türkiyə Prezidentindən getmir"*

Məlumata əsasən, yeni qərar Ərdoğan və ailəsinin malik olduğu mülkiyyət, biznes əlaqələrinin araşdırılması və bu barədə hesabatın hazırlanmasını ehtiva edir. ABŞ Konqresinin Nümayəndələr Palatası Rusiyadan "S-400" hava hücumundan müdafiə sistemləri alması və Suriyada antiterror əməliyyatları həyata keçirməsinə görə Türkiyəyə sanksiya layihəsini qəbul edib.

Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nümayəndələr Palatasının qondarma "soyqırım"la bağlı qərarına münasibət bildirib. Onun sözlərinə görə, ABŞ-da erməni terrorunu unudublar və Türkiyəni qondarma "erməni soyqırımı"nda ittiham edirlər: "ABŞ Konqresinin Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə ABŞ siyasəti üçün ayıbdır".

Türkiyə Prezidenti xəbərdarlıq edərək deyib ki, terror balonu nə zamansa erməni terrorunu, PKK-nı dəstəkləyənlərin əlində partlayacaq.

ABŞ Konqresinin Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qərarı nə qədər utancvericidirsə, Ərdoğan və ailəsinin malik olduğu mülkiyyət barədə araşdırmaların aparılması ilə bağlı qərar da yanlışdır. Bir növ, ABŞ konqresmenləri Ərdoğan ailəsi ilə şəxsi davaya başlayıblar.

O baxımdan ABŞ Konqresinin Ərdoğanla bağlı qərarını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, ABŞ Konqresi belə qərarlar qəbul etməklə çox yanlış addım atdı: "Nümayəndələr Palatasının birinci qərarı qondarma "erməni soyqırımı" ilə bağlıdır. İkinci qərar isə Türkiyəyə qarşı "Sülh çeşməsi" əməliyyatını keçirməsi ilə bağlıdır. Həmin qərarda sərt sanksiyaların tətbiq olunması nəzərdə tutulub. Bu sanksiyalar paketində Ərdoğan və ailəsinin malik olduğu mülkiyyət, biznes əlaqələrinin araşdırılması, bununla bağlı hesabatın hazırlanması nəzərdə tutulub. Burada söhbət təkcə Türkiyə Prezidentindən getmir. Bir sıra nazirlər də bura daxil edilib. İstənilən halda, Konqresin bu yöndə qərarları ədalətsizdir və reallığa söykənməyən addımlardır. Ona görə də bunu qəti şəkildə pisləyirəm. Bununla yanaşı, onu da qeyd edim ki, sözügedən qərarlar Senatda qəbul olunandan, Prezident tərəfindən imzalanandan sonra hüquqi status alacaq. Deməyim odur ki, Nümayəndələr Palatasının qəbul etdiyi qərarlar hüquqi statusa malik deyil. Bundan sonra da ABŞ Prezidentinin belə qərarlara veto qoymaq hüququ var. Bu qərarlar Türkiyəyə qarşı bir təzyiq alətidir. Bununla Türkiyənin regionda artan gücünü önləmək istəyirlər".

> *"İstənilən halda, Konqresin bu yöndə qərarları ədalətsizdir və reallığa söykənməyən addımlardır"*

***Vidadi ORDAHALLI***

# Araz Əlizadənin bitməyən "Cəmo Cəbrayılbəyli təəssübkeşliyi" və "Əhməd Cavad antipatiyası"...

**Bir qrup insan son zamanlar Azərbaycanın tarixi şəxsiyyətləri ilə bağlı ictimaiyyətə təhrif edilmiş məlumatlar verməkdən nə yorulur, nə də bezir. Beləri millət vəkilləri sırasında da az deyil. Müxtəlif qalmaqallı açıqlamalarla gündəmə gəlməyi şakərinə çevirən deputat Araz Əlizadə indi də Azərbaycanın Dövlət Himninin mətn müəllifi Əhməd Cavada çirkab atmaqla diqqəti cəlb etməyə çalışır.**



***Rəhman Salmanlı:** "Ədəbiyyat İnstitutunun elmi şurasında qərar qəbul olundu ki, Azərbaycanın Dövlət Himninin mətn müəllifi Əhməd Cavaddır"*

Seçicilərin "problemlərini qaydaya salıb yorulan" A.Əlizadənin indi də böyük Azərbaycan şairi Əhməd Cavada qarşı həqiqətə uyğun olmayan fikirlər irəli sürməsi gülüncdür. O, İTV-də yayımlanan "3D" verilişində qonaq olarkən çıxışında əsassız olaraq iddia edib ki, guya Azərbaycan Dövlət Himninin sözlərini Əhməd Cavad yazmayıb.

O, həmçinin, bildirib ki, Azərbaycan Dövlət Himnini Əhməd Oruc yazmayıb, himnimizi Cəmo Cəbrayılbəyli yazıb. Əhməd Oruc hara, Əhməd Cavad hara? Deputatın səhvini verilişin aparıcısı düzəldərək himnimizi Əhməd Orucun deyil, Əhməd Cavadın yazdığını deyib.

Deputat isə fikrindən dönməyib: "Himnimizin sözlərini Əhməd Cavad yazmayıb, Cəmo Cəbrayılbəyli yazıb"...

Qeyd edək ki, qeyri-ciddi imicilə daim tənqid hədəfi seçilən deputatın Əhməd Cavadla Əhməd Orucu qarışdırması da onun məlumatsızlığının, dayaz düşüncəsinin göstəricisindən başqa bir şey deyil.

Əhməd Cavad haqqında üç kitab müəllifi, böyük şairin irsinin araşdırıcısı, tanınmış tədqiqatçı-jurnalist Rəhman Salmanlı "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Araz Əlizadə də daxil olmaqla, bəzi qüvvələrin Azərbaycanda rəsmi səviyyədə təsdiqlənən Dövlət Himninin mətn müəllifi barədə həqiqətə uyğun olmayan fikirlər bildirməsi artıq mənfi bir ənənə halı alıb. R.Salmanlının sözlərinə görə, Dövlət Himninin mətn müəllifinin Əhməd Cavad, yoxsa başqa bir şair olmasını aydınlaşdırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasında, eləcə də digər əlaqədar qurumlarda müzakirələr aparılıb və gəlinən nəticələr əsasında himnimizin mətn müəllifinin Əhməd Cavad olduğu təsdiqlənib. R.Salmanlının vurğuladığına görə, himnimizin müəllifi Əhməd Cavaddır.

Mərhum akademik Bəkir Nəbiyevin fikirlərindən sitat gətirən tədqiqatçı qeyd etdi ki, akademik mübahisələrə son qoyub: "Akademik Bəkir Nəbiyev bu mübahisələrə qəti şəkildə son qoyaraq ərəb əlifbası ilə yazılan "Cəmo bəy" ifadəsinin "Cavad Əhməd Məhəmmədəli oğlu" sözlərinin kriptoqramından başqa bir şey olmadığını inandırıcı şəkildə sübuta yetirib və beləliklə də bütün bu mübahisələrə peşəkar ədəbiyyatşünas mövqeyindən birdəfəlik son qoymağa nail olub".

O qeyd etdi ki, Azərbaycanın dövlət rəmzlərindən biri olan Dövlət Himnimizin müəllifi ilə bağlı dolaşıq fikirlərin gündəmə gətirilməsi mənfi haldır: "Bilirsiniz ki, əvvəllər dövri mətbuatda Azərbaycanın Dövlət Himninin mətn müəllifinin Əhməd Cavad, yoxsa Cəmo bəy Cəbrayılbəyli olması ilə bağlı qızğın müzakirələr gedirdi. Həmin dövrdə Ədəbiyyat İnstitutu da, eləcə də başqa ziyalılar da məsələ qaldırdılar ki, 1919-1920-ci illərdə buraxılan "Milli nəğmələr" kitabında himnimizin mətni Cəmo bəy imzası ilə verilib. Mən bu barədə "Əhməd Cavadın yaradıcılıq yolu" kitabımda geniş bəhs etmişəm.

Bu məsələ əvvəlcə Ədəbiyyat İnstitutunun o vaxtkı direktoru, professor Yaşar Qarayevin, sonra isə mərhum akademik Bəkir Nəbiyevin iştirakı ilə Ədəbiyyat İnstitutunun elmi şurasında geniş şəkildə müzakirə edildi. Ədəbiyyat İnstitutunun elmi şurasında qərar qəbul olundu ki, Azərbaycanın Dövlət Himninin mətn müəllifi Əhməd Cavaddır. Cümhuriyyət dövründə Dövlət Himninin yazılması üçün müsabiqə elan edilib. Müsabiqəyə şeirlər imzasız təqdim edilib. Müsabiqənin nəticələrinə əsasən, Əhməd Cavadın şeiri qəbul edilib və Üzeyir bəy də ona musiqi yazıb. Orada "ƏMC" qeyd edilib və gizli keçirilən səsvermədə onun yazdığı mətn qalib gəlib. Azərbaycanın Dövlət Himninin mətn müəllifinin Əhməd Cavad olması Ədəbiyyat İnstitutu tərəfindən təsdiqləndi.

> *"Görünür, Araz Əlizadə bütün bunlar haqda məlumatsızdır, ona görə də belə açıqlamalar verir"*

Eyni zamanda, Prezident Administrasiyasının humanitar siyasət şöbəsində bu məsələyə baxıldı və dövlət səviyyəsində Azərbaycanın Dövlət Himninin müəllifinin Cəmo Cəbrayılbəyli deyil, Əhməd Cavad olması qəbul olundu. Bundan sonra isə bəziləri ortaya həqiqətə uyğun olmayan fikirlər atır, himnimizin Əhməd Cavada aid olmadığını iddia edirlər. Görünür, Araz Əlizadə bütün bunlar haqda məlumatsızdır, ona görə də belə açıqlamalar verir. O bilmir ki, bu, Elmlər Akademiyası səviyyəsində müzakirə edilərək qəbul edilib, şeirin kimə, musiqinin hansı bəstəkara aid olduğu müəyyən edilib. Bunu bütün elmi-ədəbi ictimaiyyət təsdiqləyib. Odur ki, bu məsələyə dönə-dönə qayıtmağa lüzum da yoxdur. Azərbaycanın Dövlət Himninin müəllifi haqqında bu həqiqətə uyğun olmayan fikirlərin, çıxışların nədən qaynaqlandığını bilmək olmur. Beləri ortalığı qarışdırırlar".

R.Salmanlı vurğuladı ki, bir neçə il əvvəl bəzi millət vəkilləri himnimizin sözlərinin dəyişdirilməsini təklif ediblər. Mütəxəssislər isə, öz növbəsində, bunun qarşısını alıblar. "Bəzi adamlar xoşagəlməz fikirlər səsləndirirlər. O zaman da bəzi deputatlar himnimizin sözlərinin dəyişdirilməsinə nail olmaq istəyirdilər, mətndə işlənən sözlərə irad tuturdular. O vaxt mütəxəssislər bildirdilər ki, bu mətn az qala yüz il bundan əvvəl yazılıb, o, Azərbaycan Xalq Cümhuriyyətinin himni olub. Müstəqil Azərbaycan dövləti Cümhuriyyətin varisidirsə, bu himn də onun rəmzlərindən biri olaraq qalmalıdır. Bunu dəyişdirmək olmaz. Himnimizin ictimai-siyasi çəkisi var, ona toxunmaq olmaz" - deyə R.Salmanlı vurğuladı.

***İradə SARIYEVA***

**Son dövrlərdə Qafqazda geosiyasi duruma birbaşa təsir edəcək mühüm olaylar müşahidə olunmaqdadır. Söhbət ABŞ-ın regionda hərbi müstəvidə möhkəmlənmək niyyətindən gedir. Bu xüsusda region ölkələri arasında ABŞ-ın qonşu Gürcüstanla kifayət qədər sıx münasibətləri var.**

# Rusiyanın Gümrüdəki 102-ci bazanı gücləndirməsinin sirri - Paşinyanın xəyanətə meyli, ABŞ-ın Gürcüstanda hərbi iştirakının artması...




Amma görünən budur ki, ABŞ məqsədinə çatmaq üçün artıq Ermənistan kartından da faydalanmağı düşünür. Elə bu da regionun geosiyasi durumuna daha ciddi şəkildə təsir göstərməyə başlayır.

Ümumiyyətlə, görünən budur ki, Rusiyanın hiddətinə baxmayaraq, ABŞ region siyasətində qarşıdakı dövr ərzində Gürcüstan və Ermənistan kartından daha çox istifadə etməyə çalışacaq. Bu barədə danışmazdan öncə qeyd edək ki, yaxın vaxtlarda Gürcüstanda Amerikanın hərbi bazasının yaradılması gözlənir. Hələ bu ilin avqusunda belə məlumatlar yayılmışdı ki, Gürcüstanda üç ABŞ hərbi bazasının yaradılması nəzərdə tutulur: ikisi quruda, biri isə dənizdə. Bu yaxınlarda Gürcüstanın Müdafiə Nazirliyi də bəyan edib ki, yaxın günlərdə Amerika ilə əməkdaşlıqla bağlı üç illik müqavilə imzalanacaq. Bu hələ bazaların yaradılması ilə bağlı növbəti addım sayılır. Beləliklə, ABŞ Gürcüstanda öz hərbi mövcudluğunu gücləndirməkdədir. Bu da o deməkdir ki, belə gedişlə bir müddət sonra Gürcüstanda Amerikanın legitim hərbi qüvvələri Rusiyanın Abxaziya və Cənubi Osetiyadakı qüvvələri ilə qonşu ola bilər. Gürcüstan prezidenti Salome Zurabaşvili də etiraf edir ki, ABŞ burada hərbi baza yerləşdirməklə Rusiyanın diqqətini cəlb edəcək. Amma yuxarıda qeyd olunduğu kimi, ABŞ-ın planları təkcə Gürcüstanla məhdudlaşmır. Vaşinqton İrəvanın Moskva ilə münasibətlərində yaranan çatlardan istifadə edib, Ermənistandan da öz niyyəti üçün yararlanmağı düşünür. Bunu rus politoloq Vitali Arkov da təsdiq edir: "Amerikanın Gürcüstanda hərbi baza açması ilə Nikol Paşinyanın addımları arasında bağlılıq var. Suriyadan çıxan hərbi kontingenti Gürcüstanın Cavaxetiya ərazisinə yerləşdirmək ideyası Ermənistan hökuməti və siyasi şərhçiləri tərəfindən rəğbətlə qarşılanıb. Belə ki, Paşinyan və onun komandası ABŞ-ın Qafqazı partlatmaq ideyasını regionda dəstəkləyə biləcək yeganə zəif bəndidir. Amma Bakı bu məsələdə daha uzaqgörən siyasət yürüdür". Onun sözlərinə görə, rəsmi İrəvan bəzi əsas detalları yaddan çıxarır:"Bunlardan ən vacibi Rusiya amilidir. Kreml ABŞ-ın bu addımına cavab olaraq, hətta Kubada hərbi baza aça bilər. Əlbəttə ki, ABŞ regionda Rusiyanın liderliyinə kölgə salmaga çalışır, amma yaddan çıxarmaq lazım deyil ki, Ermənistanın taleyi Moskvanın əlindədir. Paşinyan ABŞ-a arxalanaraq Qarabag məsələsində "nala-mıxa" vurmagı davam etdirsə, Bakı hərəkətə keçəcək". Arkov əmindir ki, bu prosses baş verən kimi Ermənistan ABŞ-dan dəstək gözləyəcək, Vaşinqton isə kağız üzərində olan bir bəyanatla kifayətlənəcək: "Biz tərəfləri atəşkəs rejiminə riayət etməyə çağırırıq" deyəcəklər, vəssalam". Amma ekspert bunların əvəzində Rusiyanın Ermənistanı ciddi şəkildə sıxacağını da xüsusi vurğulayır.

Bunlar fonunda Rusiyanın Ermənistandakı 102-ci bazasını gücləndirməsi də təsadüfi sayılmır. Bazanın rəhbəri Nikolay Martınyuk bildirib ki, hərbi hissənin potensialı yeni və modernizasiya edilmiş silahlar, texnika ilə təchiz edildikdən sonra təxminən iki dəfə artırılacaq. Rusiyanın Cənub Hərbi Dairəsinin general-leytenantı Sergey Kuzovlev 102-ci bazanın tam şəkildə yeni silah və texnika ilə təchiz ediləcəyini bildirib. Ekspertlər isə bunları təsadüfi saymır. Çünki Moskva birmənalı şəkildə Paşinyan iqtidarının ona qarşı xəyanətkar mövqedə olduğunu bilir. Artıq məlumdur ki, Ermənistanın siyasi dairələrində və güc strukturlarında mühüm post tutan rusiyameylli simalar vəzifələrindən uzaqlaşdırılıb. Onlardan bəziləri həbs edilib. Paşinyan öz komandasına, əsasən anti-Rusiya siyasətçilərini toplayıb. Onun komandasında nazirlərin mütləq əksəriyyəti "Sorosun uşaqları" adlandırılan siyasətçilərdir ki, onlar da birbaşa Amerika ilə bağlı şəxslərdir. Eyni zamanda, Paşinyan ABŞ və Qərblə əməkdaşlığı Rusiyanın maraqlarına zidd müstəvidə inkişaf etdirməkdə də maraqlıdır və belə vəziyyət Moskva tərəfindən heç də xoş qarşılanmır. Bu fonda da İrəvanın xarici siyasətində Rusiya ilə münasibətlər nəzərəçarpacaq dərəcədə pisləşib. Ermənistanın "İrates" qəzeti yazır ki, bunlara əsas səbəb Ermənistanın hazırkı hakimiyyətinin Rusiya ilə yalnız sözdə əlaqələr qurmasıdır. Məlumata görə, son zamanlar parlamentdənkənar bəzi xadimlərlə rus diplomatların görüşü zamanı ruslar Ermənistan hakimiyyətindən narazılıq edib və qeyd ediblər ki, problem getdikcə böyüyür. Bunların fonunda xatırlanır ki, Ermənistanın müdafiə naziri David Tanoyan bu ilin yayında Rusiya sərhədçilərinin ölkəsindəki dislokasiya məsələsinə yenidən baxılmasının mümkünlüyü haqda fikir səsləndirib. Kreml isə bunu İrəvana bağışlamaq niyyətində deyil. Ermənistan Müdafiə Nazirliyinin elan etdiyi silah tenderində Rusiyanın silah şirkətlərinin iştirakı nəzərdə tutulsa da, tenderin müəmmalı şəkildə ləğv edilməsi də Kremlin yadından çıxmayıb.

Rusiyanın Ermənistan münasibətlərində getdikcə daha çox korrektələr etməsi də elə bundan qaynaqlanır. Görünən budur ki, Ermənistanın, xüsusən də baş nazir Nikol Paşinyanın siyasətdə yol verdiyi naşılıqlar, xətalar işğalçı ölkəni əsas himayədarlarından, o cümlədən Rusiyadan məhrum edir. İndi ABŞ-ın regionda möhkəmlənmək üçün erməni kartından da istifadə etmək niyyəti, ekspertlərə görə, Rusiyanın Ermənistana qarşı siyasətində daha sərt hərəkətə keçməsi ilə nəticələnəcək. Hər halda, hadisələrin gedişi Ermənistanın Rusiya və ABŞ arasında qalıb əziləcəyini istisna etmir. Bölgədə yalnız Azərbaycanın neytral xarici siyasət nəticəsində ABŞ və Rusiyanın yeni Qafqaz çəkişməsinin təsirlərindən kənarda qalacağı da əsas proqnozlar sırasında yer alır.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Düşmənin Azərbaycana müqavimət imkanları tam tükənir - Ermənistanda tam şəxsi heyətdə bircə hərbi hissə də yoxdur

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə olan ümidlərin getdikcə tükənməsi fonunda məsələnin hərbi çözümü sürətlə aktuallaşır. Amma bu fonda danışıqların dalana dirənməsinə səbəb olan erməniləri narahat edən əsas məqamlardan biri də Azərbaycan ordusunun qarşısında necə duruş gətirəcəkləri ilə bağlıdır.**

Məsələ burasındadır ki, Azərbaycanla silahlanma yarışında ayaqlaşa bilməyən Ermənistan ordusu digər parametrlər üzrə də getdikcə daha acınacaqlı vəziyyətə düşməkdədir. Orduda baş verən neqativ hadisələr bir daha sübut edir ki, Ermənistan ordusu nəinki Azərbaycan Silahlı Qüvvələri ilə döyüş aparmaq, hətta öz ölkəsini qorumaq üçün kifayət qədər gücə sahib deyil.

Qeyd edilənlər fonunda erməni ordusunda diqqət çəkən məqamlardan biri demoqrafik böhran fonunda çağırışçı probleminin daha böyük sürətlə qabarmasıdır. Hazırda Ermənistanda şəxsi heyətlə tam şəkildə komplektləşdirilə bilən hansısa hərbi hissə yoxdur. Əksinə, ordunun şəxsi heyətlə təminatı durmadan pisləşir, real hərbçilərin sayı azalır. Məlumat üçün bildirək ki, Ermənistanda həqiqi hərbi xidmətə çağırış yaşı 18-27, orduda xidmət müddəti isə 2 ildir. Hərbi xidmətə çağırış ildə iki dəfə olmaqla 6 aydan bir həyata keçirilir. Erməni mediasında yer alan məlumatlara görə, 2004-cü ildən başlayaraq, demək olar ki, hər il Ermənistanda çağırış zamanı hərbi hissələrin çağırışçılarla tam şəkildə komplektləşdirilməməsi ciddi problem olaraq ortaya çıxır. Məsələnin əsas köklərindən biri də bundadır ki, Ermənistanda davam edən acınacaqlı sosial-iqtisadi vəziyyət kişilərin kütləvi sürətdə ölkəni tərk etməsi ilə xarakterizə olunur. İşğalçı ölkənin üzləşdiyi demoqrafik fəlakət isə ordu strukturunu məhv edir. İndi isə Ermənistan orduda yaşanan şəxsi heyət böhranını qadınların hesabına həll etməyə çalışır. Qeyd edək, bu yaxınlarda Ermənistan müdafiə naziri David Tonoyan ordunun tərkibində qadınlardan ibarət yeni diviziyanın yaradılması ilə bağlı göstəriş verib. Bu məsələ ölkədə artıq geniş müzakirə olunur. Görünən budur ki, kişi qıtlığı səbəbindən hakimiyyət orduda qadınların sayını artırmağı düşünür. Əsas səbəb də Ermənistan ordusunda insan ehtiyatlarının çatışmaması ilə bağlıdır. Rusiyalı ekspert Oleq Kuznetsov David Tonoyanın qadınları hərbi xidmətə cəlb etmək qərarı barədə verdiyi bəyanatı şərh edərkən məsələ ilə bağlı bildirir: "Ermənistan əhalisinin gender tarazılığının pozulması orduya çağırışda müəyyən çətinliklərə gətirib çıxara bilər. Özünü Avropa dəyərlərinə bağlı ölkə kimi qələmə verən Ermənistan hakimiyyəti qadınların hərbi xidmət keçməsi üçün hər hansı hüquqi və ya əxlaqi maneə görmür". Rusiyalı ekspert Ermənistandan kişilərin xaricə getməsi nəticəsində gender tarazılığının pozulması üzündən indidən hərbi çağırış sahəsində, yaxın gələcəkdə isə ordunu saxlamaq baxımından müəyyən çətinliklərin ortaya çıxmasını istisna etməyib. Hazırda Ermənistanda yaradılan qaydaya görə, çörəkpulu dalınca xaricə getmək istəyən hər kişinin, hərbi xidmət keçməklə yanaşı, ən azı yarım il işğal etdikləri Azərbaycan ərazisində qulluq etmək məcburiyyətində olduğunu söyləyən O.Kuznetsov ermənilərin ölkədəki əmək bazarında güclü rəqabət üzündən xaricə getməkdən başqa çarələri qalmadığını dilə gətirib: "Bu gün az qala feodal dövr səviyyəsindəki barter iqtisadiyyatının hökm sürdüyü Ermənistanda işçi qüvvəsinin bolluğu var. Buna baxmayaraq, müqavilə ilə hərbi xidmətə getməyə həvəs göstərən azdır. Bunun üç səbəbi var: can qorxusu, səhhətin zəifliyi, əqli zəiflik. Belə olan halda bir çoxları özlərini və ailələrini dolandırmaq üçün xaricə üz tutmalı olur. Bu da çox təbiidir. Hətta ölkədə yaşayış şəraiti nisbətən düzəlsə belə, erməni kişilərin hərbi xidmətə getmək üçün növbəyə düzüləcəyi hələ müəmmalıdır".

Xatırldaq ki, işğalçı ölkənin ordusunda qadınların kütləvi şəkildə hərbiyə cəlb olunması məsələsi bundan əvvəl də bir neçə dəfə müzakirə edilib. İndi görünən odur ki, bu proses artıq həyata keçirilir və müqavilə əsasında qadınlar silahlı qüvvələrə çağırılır. Rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini isə qadınlar təşkil edir. Amma reallıqda kişilərin sayı olduqca azdır və bu hal orduda təminat baxımından özünü daha qabarıq göstərir. Digər tərəfdən, artıq faktdır ki, erməni valideynlər övladlarını hərbi qeydiyyata düşməmişdən öncə xarici ölkələrə yollayır. Çünki Ermənistan cəmiyyəti gənclərin işğalçı, separatçı rejimin tərkibində işğal olunmuş Dağlıq Qarabağda xidmət etməsinə etiraz edir. Orduda övladlarını itirən valideynlər isə digərlərini uşaqlarını ordyua göndərməməyə çağırır. Onlar mövcud hakimiyyətin də orduya laqeyd yanaşıdığını bəyan edir. Bu arada qeyd olunan xüsusda hökumət binası qarşısında etiraz əsgər anaları daha bir etiraz aksiyası keçirib. Onlardan biri bildirib: "Oğullarımızın işlərinə yenidən baxılmasına dair Paşinyanın göstərişindən bir il altı ay vaxt keçməsinə baxmayaraq, irəliləyiş yoxdur, buna görə Paşinyanın özü ilə görüş tələb edirik. Parlament sədrinin müavini Lena Nazaryan bizimlə görüşdü, lakin heç nə vəd etmədi. Əsgərlərin qətl hadisələrinin açılması üçün bütün aidiyyəti qurumlara, bütün deputatlara müraciət etsək də nəticə yoxdur. Müstəntiqlər niyə iş görmür və prokurorlar əsgərlərin işini nə vaxtadək bağlı saxlayacaqlar?". Şikayətçilərdən Armine Qasparyan övladının yeni, yəni mayın 6-da qətlə yetirildiyini, lakin hadisənin təfərrüatının açılmadığını qeyd edib. Köhnə işlərdə sübut-dəllilərin yoxa çıxdığını bəhanə etsələr də, valideynlər bu yeni baş verən cinayətin niyə açılmamasının səbəbini anlamadıqlarını qeyd edirlər. Şikayətçi qadınlardan biri qeyd edir ki, hərbi polis onların övladlarının hansı şəraitdə və kim tərəfindən öldürüldüyünü bilsə də, cinayət əməlinin açıqlanmasını istəmir. Elə bu kimi hadisələr də erməni ordusundan yayınmaların sayını artırır. Belə vəziyyətdə son dövrlərə qədər Azərbaycanla dövlət sərhədində və işğal olunmuş Azərbaycan ərazilərində yerləşən hərbi hissələrdə şəxsi heyət sarıdan yaranan boşluğu doldurmaq üçün Ermənistanın rəhbərliyi mülki əhalinin "xidmətindən" istifadə etməyə çalışıb. Amma bunun üçün yetəri sayda da mülki əhali yoxdur. Çünki orduda artan itkilər mülki əhalini də buradan yayınmağa vadar edir. Digər tərəfdən, aprel hadisələrindən sonra cəbhə bölgəsində yaşayan əhali müəyyən qədər bu əraziləri tərk edir, oralarda məskunlaşmaq istəmir. Bu isə ordunun şəxsi heyətlə tələbini mülki əhali hesabına ödəməyin də çətin duruma gəlməsinin təsdiqi sayılır.

Ümumilikdə isə son illərdə Ermənistan ordusu cəbhə xəttində, döyüş şəraitində hər il orta hesablla 60-80 arası hərbi qulluqçusunu itirir. Bundan əlavə, hər il 100-dən çox əsgər digər hadisələrdən, məsələn, avtoqəza, silahla ehtiyatsız davranış, xəstəliklər, intihar və digər belə hallardan dünyasını dəyişir. Ölümlərin sırasında hərbi qulluqçuların sağlamlığına biganə yanaşılması da az rol oynamır. Ordunun qida təchizatındakı problemlər, əsgərlərin antisanitariya şəraitdə xidmət aparmaları, kazarmaların bərbad vəziyyətdə olması səbəbindən xeyli sayda hərbi qulluqçu ciddi sağlamlıq problemləri yaşayır. Əsasən donvurma, vərəm, pnevmaniya, dərizöhrəvi, müxtəlif infeksion xəstəliklər, sətəlcəm, mədəbağırsaq və digər diaqnozlar çoxluq təşkil edir. Fərari əsgər sayına görə də Ermənistan ordusu ön sıralardadır. Ekspertlərin fikirincə, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edir. Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açılması da bunun təsdiqidir.

Orduda əsgərlərlə yanaşı, zabit heyətii arasında da fərarilik halları geniş yayılıb. O səbəbdən ki, zabitğlər də burada acancaqlı vəziyyətin qurbanına çevrilir. Onlar maliyyə təminatı sarıdan da narazılıq edir. Yeri gəlmişkən qeyd edək ki, Ermənistanın silahlı qüvvələrində ciddi maliyyə böhranı var. Bu ölkənin Müdafiə Nazirliyi yerli mətbuat orqanının sorğusuna cavabında nazirliyin hərbi qulluqçulara milyonlarla dollar borcunun yarandığını etiraf edib.

Rəsmi məlumatda hökumətin hərbi qulluqçulara borcunun dəqiq məbləği göstərilmir, lakin Ermənistanın ehtiyatda olan hərbi qulluqçular ittifaqının üzvü Gevork Ovannisyan bildirib ki, borcun miqdarı milyonlarla dollardır. Onun sözlərinə görə, artıq illərdir ki, hərbi qulluqçular və digər güc strukturlarının əməkdaşları məzuniyyət haqqını ala bilmir. Jurnalistlərin pulsuz qalan zabitlərin sayı ilə bağlı sualına isə nazirlikdən cavab veriblər ki, onlar bu cür statistika aparmırlar. Əlavə ediblər ki, məsələnin həlli üçün nazirliyin rəhbərliyi "müvafiq tədbirlər" görür. Qeyd olunub ki, Ermənistandakı insan hüquqlarının müdafiəsi ofisi də hərbi qulluqçuların bununla bağlı müraciətlərini qəbul edib. Amma reallıqda dəyişən nəsə yoxdur. Belə vəziyyətdə Ermənistan ordusunda əsgər çatışmazlığı problemi də ciddi hal alır. Məsələnin həlli üçün hökumət indi ümidini qadınlara bağlayıb. Amma bu gedişlə məhv olan Ermənistan ordusunu qadınların da xilas etməsi müşkül görünür. Hesab edilir ki, yaranmış vəziyyətdə Qarabağ münaqişəsinin hərbi həlli aktuallaşağı təqdirdə Azərbaycan ordusu qısa zaman kəsiyində erməniləri darmadağın edəcək. Bunu, əslində düşmən tərəfi özü də yaxşı bilir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Venesiya Komissiyasının narahat bəyanatı - Paşinyanın avtoritar rejimi Konstitusiya Məhkəməsinin müstəqilliyini əzir

**Avropa Şurası Venesiya Komissiyasının prezidenti Cani Bukikio Ermənistan hökuməti ilə Konstitusiya Məhkəməsi arasındakı münaqişədən ciddi narahatlığını ifadə edib. Venesiya Komissiyasının prezidenti bununla bağlı bəyanat verib. Bəyanatda deyilir:**



## *Mübariz Əhmədoğlu: "Hökumətlə məhkəmə arasında yaşanan qarşıdurma Paşinyanın artan avtoritarizmindən xəbər verir"*

"Son aylar Ermənistandakı prosesləri yaxından izləyirəm və bir tərəfdən hökumətlə parlament, digər tərəfdən Konstitusiya Məhkəməsi ilə açıq qarşıdurmadan narahatam. Hadisələrin belə tez əvəzlənməsi problemlərin həllinə kömək etmir".

VK prezidenti vurğulayıb ki, Konstitusiya Məhkəməsi konstitusiya dəyərlərinin qorunması həvalə olunan müdafiə institutudur. Demokratik ölkələrdə bütün dövlət qurumları və vəzifəli şəxslər öz öhdəliklərinə hörmətlə yanaşmalı, eyni zamanda, digər qurumların hüquqlarını tanımalı və hörmət etməlidirlər. Onlar müvafiq prosedurlara riayət etməlidirlər: "Əgər bu baş verməzsə, kifayət qədər demokratik mədəniyyət və tamlıq olmazsa, dövlət qurumlarının fəaliyyətinə təhlükə yaranacaq, cəmiyyətin demokratik, vətəndaş və iqtisadi tərəqqisi təhlükə altına düşəcək. Bu, həyəcanverici vəziyyəti yüngülləşdirmək və Ermənistan Konstitusiyasının normal fəaliyyətini bərpa etmək üçün bütün tərəfləri təmkinli olmağa, qarşılıqlı hörmət və konstruktiv institusional əməkdaşlığa çağırıram".

Paşinyan Baş nazir seçiləndən sonra hökumətlə Konstitusiya Məhkəməsi arasında qarşıdurma yaranmağa başladı. Əslində, məsələnin mahiyyəti onunla əlaqədardır ki, Paşinyan Konstitusiya Məhkəməsini öz iradəsinə tabe etdirmək istəyir. İstəmir ki, ölkədə müstəqil məhkəmə sistemi olsun. Avtoritar Paşinyan rejimi ölkədəki sonuncu müstəqil qurumun axırına çıxmaq istəyir. Qarşıdurmanın kökündə dayanan başlıca faktor bununla bağlıdır.

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlunun sözlərinə görə, Ermənistan Baş naziri Nikol Paşinyan istəyir ki, onun maraqlarına uyğun məhkəmə hakimiyyəti formalaşsın: "Əvvəla Ermənistan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan mələk deyil. O özü də əvvəlki Serj Sarkisyan rejiminin təmsilçisi olub. Əvvəlki hakimiyyət dönəmində Konstitusiya Məhkəməsi bir sıra ədalətsiz qərarlar qəbul edib. Bunları həyata keçirən də məhz H. Tovmasyan olub. Bir sözlə, Ermənistanda Konstitusiya Məhkəməsi əvvəlki hakimiyyətə yaxın olduğu üçün, Paşinyan bundan narahatdır. Ancaq, istənilən halda, hökumətlə məhkəmə arasında yaşanan qarşıdurma Paşinyanın artan avtoritarizmindən xəbər verir. Venesiya Komissiyasının məlum narahatlığı təkcə ölkədə artan avtoritarizm meylləri ilə bağlı deyil. Burada digər amillər də var. Məsələ ondadır ki, Ermənistandakı hüquqi və demokratik sistemin bütün əsaslandırmalarını Venesiya Komissiyası verib. Sözügedən komissiya bilirdi ki, Ermənistan Konstitusiyasında nə qədər boşluq var. Onlar yaxşı bilirlər ki, Prezidentin səlahiyyəti harada başlayır, Baş nazirin səlahiyyəti harada bitir.

*"Gör Ermənistanda vəziyyət nə yerə gəlib çatıb ki, Konstitusiya Məhkəməsi sədrinin adı cinayət işində hallanır"*

Baxmayaraq ki, bütün bunlar ölkə qanunvericiliyində o qədər də dəqiq göstərilməyib. Bütün bu məsələlərdə Venesiya Komissiyası müəyyən məsuliyyət daşıyır. Narahatlıq həm də bununla bağlıdır. Dünyanın heç yerində, ən azından, Avropada Konstitusiya Məhkəməsinə rəhbərlik edən şəxs həbs olunmayıb. Gör Ermənistanda vəziyyət nə yerə gəlib çatıb ki, H.Tovmasyanın adı cinayət işində hallanır. Bir müddət sonra Tovmasyan həbs olunsa, o zaman bu, Venesiya Komissiyasının da nüfuzuna xələl gətirəcək".

***Vidadi ORDAHALLI***

# Rusiya-Ermənistan hərbi əməkdaşlıq proqramı...

**Ermənistanın müdafiə naziri David Tonoyan rusiyalı həmkarı Sergey Şoyqu ilə görüşüb. Erməni mediasının yaydığı məlumata görə, nazirlər öncə təkbətək görüş keçiriblər. Daha sonra nümayəndə heyətinin iştirakı ilə geniş tərkibli görüş baş tutub.**




## *Azad İsazadə: "Rusiya Ermənistanla hərbi əməkdaşlığı genişləndirməklə bu ölkəni özündən asılı vəziyyətə salmaq istəyir"*

D.Tonoyan müdafiə sahəsində ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirib. Eyni zamanda, hərbi-texniki sferada proqramların səmərəliliyini təqdir edib.

S.Şoyqu isə Ermənistana rəsmi səfərinin Gümrüdən başladığını vurğulayıb. O bildirib ki, yerli əhali Rusiya hərbi bazasının şəxsi heyətinə dost münasibət bəsləyir. Rusiyalı nazir hər iki tərəfin münasibətinin strateji xarakter daşıdığından, birgə döyüş hazırlığının əhəmiyyətindən də söz açıb. Nazir əməliyyat planlaşdırılmasının, hərbi təhsilin və baza heyətinin döyüş hazırlığının gücləndirilməsinin vacibliyini vurğulayıb: "Biz əməkdaşlığımızı intensiv şəkildə davam etdirməyi planlaşdırırıq. Bu məqsədlə 60-dan çox birgə tədbirin daxil olduğu 2020-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planının layihəsi hazırlanıb".

Görüş çərçivəsində, həmçinin, iki ölkə arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf yolları barədə fikir mübadiləsi aparılıb. Səfər çərçivəsində 2020-ci il üçün əməkdaşlıq proqramı imzalanıb.

Bütövlükdə, Ermənistanla Rusiya arasında gələn il üçün belə geniş əməkdaşlıq proqramının imzalanması nə deməkdir? Ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadə buna bir neçə kontekstdən yanaşdı: "Rusiya Ermənistanla hərbi əməkdaşlığı genişləndirməklə bu ölkəni özündən asılı vəziyyətə salmaq istəyir. Çünki Ermənistandakı hazırkı rəhbərlik qərbyönümlüdür. Bu səbəbdən Kreml hazırkı hakimiyyətə o qədər də etibar etmir. Burada söhbət təkcə hərbi əməkdaşlıqdan getmir. Ümumiyyətlə, Rusiya Ermənistanı özünə tam bağlamaq istəyir. Təsadüfi deyil ki, Rusiyanın Ermənistanın Gümrü şəhərində yerləşən 102-ci hərbi bazasının gücü və döyüş potensialı təxminən 2 dəfəyə qədər artırılacaq. Rusiya bunu həm də Yaxın Şərqdə gedən proseslərlə əlaqədar edir. Çünki həmin bölgədə vəziyyət tez-tez dəyişir. Rusiya Yaxın Şərq regionunu nəzarət altında saxlamaq üçün Cənubi Qafqazda hərbi bazasını genişləndirir. Cənubi Qafqaz regionunda Rusiyanın ancaq Ermənistanda hərbi bazaları var. Burada söhbət hərbi müttəfiqlikdən yox, ərazi müttəfiqliyindən gedir. Yəni Ermənistanın ərazisindən istifadə edib Yaxın Şərqdə gedən proseslərə necəsə təsir etsin. Ermənistan isə Rusiya ilə hərbi əməkdaşlığı Azərbaycana görə genişləndirir. Guya Azərbaycan onlar üçün təhdid mənbəyidir. Əslində, Azərbaycanın Ermənistana yönəlik heç bir ərazi iddiası yoxdur. Azərbaycan, sadəcə, işğal altında olan ərazilərini azad etmək istəyir".

*"Burada söhbət hərbi müttəfiqlikdən yox, ərazi müttəfiqliyindən gedir"*

***Vidadi ORDAHALLI***

# ABŞ Türkiyəni itirir, Ankara isə Moskva ilə birlikdə Yaxın Şərq və Qafqazda güclənir

**Eyni hərbi blokda təmsil olunmalarına və Türkiyəni strateji müttəfiq adlandırmasına baxmayaraq, ABŞ qardaş ölkəyə qarşı hələ də anlaşılmaz bir siyasət yürüdür. Belə görünür ki, Türkiyənin Suriya siyasəti, "Sülh çeşməsi" əməliyyatı, Rusiya ilə dinamik inkişaf edən münasibətlərini ABŞ-da müəyyən qüvvələr həzm edə bilmir.**



Ümumiyyətlə, ABŞ-ın Türkiyə siyasətində ciddi parçalanmalar müşahidə olunur. Bir tərəfdə Ağ Ev Türkiyə ilə münasibətləri inkişaf etdirmək istədiyi halda, qanunverici orqan buna qarşı çıxır. Qeyd edək ki, ABŞ Konqresinin Nümayəndələr Palatası Suriyada keçirilən əməliyyat, həmçinin Rusiyadan S-400 sistemlərinin alınması ilə əlaqədar Türkiyəyə qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini böyük səs çoxluğu ilə bəyənib. Qəbul edilmiş qanun layihəsi "Halkbank"a və müdafiə naziri də daxil olmaqla, ən yüksək vəzifəli şəxslərə qarşı sanksiyaların tətbiqini, həmçinin türk məmurlarının aktivlərinin dondurulmasını nəzərdə tutur. Sənəd qüvvəyə minməsi üçün Senatdan keçməli, daha sonra isə ABŞ prezidenti tərəfindən imzalanmalıdır. Amma Nümayəndələr Palatasının qəbuledilməz addımları bununla bitmir. Belə ki, Nümayəndələr Palatası qondarma "erməni soyqırımını" rəsmi olaraq tanıyan qanun layihəsini də təsdiq edib. Səsvermənin canlı yayımı Konqresin saytında nümayiş olunub. Deputatlar 223 səs lehinə, 191 səs əleyhinə qarşılığında qanun layihəsini qəbul edib. Qanun layihəsinin müəllifi, ermənipərəstliyi ilə tanınan Adam Şiff bu qərarın "öz vaxtında" qəbul edildiyini bildirib. Qəbul edilən layihə Senatda müzakirəyə çıxarılacaq. Senatda qəbul olunarsa, bu, ABŞ Konqresinin qondarma "erməni soyqırımı"nın tanınması üçün tövsiyə xarakterli qərarı olacaq.

Xatırladaq ki, ABŞ ştatlarının Missisipidən başqa hamısı indiyədək "erməni soyqırımını" tanıyan qətnamələr qəbul edib. Əvvəllər Türkiyə hökuməti bu məsələnin qanunvericilik halına gəlməməsi üçün uğurlu lobbiçilik fəaliyyətində olub. Lakin iki ölkə arasında hazırda yaranmış vəziyyətdə bunu etmək son dərəcə çətin hala gəlib. Qanun layihəsi Konqres üzvlərinin vise-prezident Mayk Pens və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında əldə olunmuş atəşkəs razılaşmasından kifayətlənmədiklərinin ifadəsi olub. İndi prezident Tramp Türkiyəyə qarşı sanksiyaları Konqresə məlumat verməklə hər dəfə 90 gün müddətinə dondura bilər. Amma bunun üçün Türkiyənin atəşkəsi pozmaması tələb edilir. Nümayəndələr Palatası Xarici İşlər Komitəsinin sədri, ermənipərəst konqresmen Eliot Engel deyib ki, prezident Tramp Ərdoğanın "əl-qolunu açıb", amma Konqres Amerika hökumətinin əsl mövqeyini göstərməlidir. Beləliklə, qanun layihəsinə görə, Türkiyə Suriyada atəşkəsi pozarsa, ən sərt sanksiyalarla üzləşə bilər. Lakin Ərdoğanın sözçüsü Fahrettin Altun bildirib ki, Türkiyəni sanksiyalarla hədələyən qanun layihəsi strateji müttəfiqliyin ruhuna birbaşa ziddir. Türkiyənin Xarici İşlər Nazirliyi də Ankaraya qarşı sanksiyalar haqqında qanun layihəsinin qəbulu ilə əlaqədar ABŞ-ı ittiham edib. Qurumun saytında yerləşdirilən bəyanatda deyilir: "ABŞ Nümayəndələr Palatasında "Sülh çeşməsi" əməliyyatı ilə əlaqədar Türkiyəyə qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsinin qəbulunu qətiyyətlə ittiham edirik". Xarici siyasət idarəsindən bildiriblər ki, qanun layihəsi NATO-nun ruhuna uyğun deyil və Suriya üzrə Türkiyə-ABŞ razılaşmasına ziddir. Türkiyə hakimiyyəti, həmçinin, ABŞ Konqresini daxili siyasi hədəflər üçün ikitərəfli münasibətlərlə bağlı məsələlərdən istifadə etməməyə çağırıb: "Biz ABŞ administrasiyasını münasibətlərimizin sonrakı kəskinləşməsinin qarşısını almaq üçün lazımlı ölçüləri qəbul etməyə çağırırıq".

Nazirlik qondarma "erməni soyqırımı" məsələsinə də sərt reaksiya verib: "Məclislərin siyasi əhval-ruhiyyəsinə görə tarixi formalaşdırmağa çalışmaqdan daha ciddi bir səhv ola bilməz. Qərar, eyni zamanda, 1948-ci il soyqırımın qarşısının alınması haqqında Konvensiyanın müddəalarına, eləcə də ABŞ qanunlarına və beynəlxalq hüquqa ziddir. Beynəlxalq hüquqda 1915-ci il hadisələrini "soyqırımı" olaraq təyin edən heç bir qətnamə yoxdur. Sözügedən dövrdə baş verən hadisələr siyasətin deyil, tarix elminin sahəsidir. Türkiyə və ABŞ arasındakı müttəfiqlik bağının və dostluq əlaqələrin davamına dəstək verən amerikalı dostlarımızın bu dəhşətli səhvi araşdıracağına və məsullarının ABŞ xalqının vicdanında mühakimə ediləcəyinə inanırıq".

Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu da Nümayəndələr Palatasının addımını qətiyyətlə pisləyib və deyib ki, bu qərar qanunsuz və etibarsızdır. Çavuşoğlu qeyd edir ki, Türkiyə Suriyanın şimal-şərqinə hücumla "böyük oyunun" qarşısını alıb və Konqresin qərarı da bu əməliyyata görə qisasdır: "Niyyətləri baş tutmayanlar nimdaş qətnamələrə əl atırlar. Onların bu yolla qisas alacaqlarını düşünənlər səhv edir. Tarixi siyasət üçün istismar edənlərin qərarları hökumətimiz və xalqımız üçün qanunsuz və etibarsızdır. Bizdən bu yolla intiqam alacağını sananlar yanılır. Tarixi siyasətə alət edənlərin bu utancverici qərarı hökumətimizin və xalqımızın gözündə yox hökmündədir". Məsələ ilə bağlı ABŞ-ın Türkiyədəki səfiri Devid Saterfild Xarici İşlər Nazirliyinə çağırılıb.

Ekspertlər bildirir ki, belə vəziyyətdə baş verənlər ABŞ-ın Türkiyəni itirməsi anlamına gəlir. Çünki bu halda tərəflər arasında münasibətlərdə qarşılıqlı etimad tam aradan qalxır. Əvəzində gözlənir ki, Türkiyə və Rusiya arasında yaxınaşma daha intensiv xarakter alsın. Hətta artıq ABŞ-ın ehtiyat etdiyi daha bir məsələnin reallaşması da bu fonda baş tuta bilər. Söhbət Türkiyə ilə Rusiya arasında Su-35 döyüş təyyarələrinin alqı-satqısından gedir. Bu razılaşma əldə olunsa, Su-35 döyüş təyyarələri "S-400"dən sonra Türkiyənin Rusiyadan aldığı ikinci böyük silah sistemi olacaq. Ankara bu məsələni təkzib etsə də, ABŞ-ın atdığı addımlar, ekspertlərə görə, vəziyyəti dəyişəcək, Türkiyənin Rusiya ilə daha çox yaxınlaşmasına rəvac verəcək. Tərəflər onsuz da Suriyada artıq ciddi əməkdaşlıq edirdi. Amma bundan sonra əməkdaşlığın daha da dərinləşməsi, digər istiqamətlərə, o cümlədən Qafqaza da təsir etməsi gözlənir. Rusiya Türkiyəni qazanmaq üçün Ankaranın bu regionda da güclənməsinə göz yummağa hazırdır.

***Nahid SALAYEV***

# "Bakı Dövlət Universitetinin tarixində ən ədalətli rektor Yusif Məmmədəliyev olub"

## Əsədulla Qurbanov: "BDU-nun ən görkəmli məzunu dahi Heydər Əliyevdir"

**1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən əsası qoyulan Bakı Dövlət Universitetinin (BDU) 100 illiyi tamam olub. BDU-nun 100 illik yubileyi münasibətilə ömrünün 60 ildən çoxunu bu ali məktəbə həsr edən BDU-nun İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru, professor, BMT-nin sülh səfiri, "Söz" Akademiyasının üzvü, "Tərəqqi" medallı, məşhur 91-lərdən biri Əsədulla Qurbanovu redaksiyamıza dəvət etdik və onunla BDU-nun 100 illiyi haqqında ətraflı söhbət etdik.**

**- Əsədulla müəllim, ömrünüzün çox böyük hissəsini Bakı Dövlət Universitetinə həsr etmisiniz. Bu ali məktəbin 60 ildən çoxu Sizin gözünüzün qarşısında keçib. 100 yaşlı BDU Sizin üçün nədir?**

- 1956-cı ildə Azərbaycan Dövlət Universitetinə, indiki Bakı Dövlət Universitetinə qəbul olunmuşam. Bakı Dövlət Universiteti Azərbaycanın dünəni, bu günü və parlaq sabahıdır. Bu ali məktəbin mövcudluğu bizə Azərbaycan Xalq Cümhuriyyətinin ən layiqli töhfələrindən biridir, eyni zamanda da qədirbilən Azərbaycan xalqının simvolu, möhtəşəm abidəsidir. Müstəqil Azərbaycan ona görə qüdrətli dövlətdir ki, onun Bakı Dövlət Universiteti kimi təhsil ocağı, elm, təhsil, mədəniyyət məbədi var. Bakı Dövlət Universiteti şanlı 100 illik fəaliyyəti dövründə respublikamızın ilk ali təhsil ocağı kimi ölkə həyatının bütün sahələrinə öz müsbət təsirini göstərib.

BDU-nun əsasında Azərbaycan Milli Elmlər Akademiyası yaradılıb, bir çox ali məktəbin özülü bu ali məktəbdə qoyulub, sonra onlar buradan ayrılıb müstəqil ali məktəblər kimi fəaliyyət göstəriblər.

**- BDU-nun 100 illik yubileyindən danışırıqsa, mütləq xatirələrə də üz tutmalıyıq. Yubiley dövründə kimləri xatırlayırsınız?**

- Mən böyük məmnuniyyətlə müəllimlərimi, rektorlarımı xatırlayıram. BDU-da tələbə olarkən mənə dərs deyən akademiklərdən Həmid Araslı, Cəfər Cəfərov, Feyzulla Qasımzadə, Əlövsət Abdullayev, Mircəlal Paşayev, Əli Sultanlı, Abbas Zamanov, Məmmədcəfər Cəfərov yadıma düşür, onların adlarını bu gün də iftixarla çəkirəm. Onların hər biri bir məktəb olub. Bu gün BDU-da onların ənənələri qorunub saxlanılır. Burada milli şüur, milli təfəkkür, milli mənlik şüuruna malik olan bir məktəb yaranıb.

BDU-ya rəhbərlik etmiş, Azərbaycan və dünya elmi üçün böyük töhfələr bəxş etmiş akademik Yusif Məmmədəliyevi, akademik Şəfayət Mehdiyevi, akademik Faiq Bağırzadəni, akademik Mirabbas Qasımovu, akademik Cəmil Quliyevi xatırlayıram.

Akademik Cəmil Quliyev 1 il BDU-da rektor oldu və rektor olduğu müddətdə 1 qəpik də olsa maaş almadı, o qədər təmiz, o qədər dürüst adam idi ki. Mən burada 14 rektor görmüşəm.

**- Bu rektorlar arasında ən ədalətli rektor hansı idi?**

- BDU-nun tarixində ən ədalətli rektor Yusif Məmmədəliyev olub. Mən Beynəlxalq Yusif Məmmədəliyev mükafatı da almışam.

**- Yusif Məmmədəliyev Sizin idealınız olub deyəsən...**

- Bəli, o hər zaman mənim idealım olub. Nə üçün? Mən ali məktəbə qəbul olunanda rus dilindən imladan 2 almışdım. Çünki bizə kəndimizdə rus dili keçməmişdilər. Qəbul komissiyasının sədri çox narahat oldu və məni Yusif Məmmədəliyevin yanına aparıb vəziyyəti ona izah etdi. Yusif müəllim qəbul komissiyasının sədrinə dedi ki, düzdür, qəbul imtahanları qurtarıb, amma sən rus dili müəllimlərini bir yerə topla və onun başının üstündə durub imlanı ona yazdırın. Allah rəhmət eləsin. Onun etdiyini heç kəs etməzdi, amma o, bu böyük yaxşılığı mənə etdi. Mən o imlanı yazdım və yüksək qiymət aldım, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olundum. Bir-iki il oxuduqdan sonra məni BDU-nun Şərq fakültəsinə keçirdilər, 1961-ci ildə Şərq fakültəsini bitirdim. Məni ali məktəbdə saxladılar, aspiranturanı oxudum. Bu gün də həmin ali məktəbdə fəaliyyət göstərirəm.

**- Hər müəlliminizin özü bir məktəb idi... Tələbəlikdən yadınızda qalan xatirələr çoxdurmu?**

- Ən böyük xatirələrim müəllimlərimlə bağlıdır. Sizə Mir Cəlal müəllimlə bağlı bir epizod danışım. Mircəlal müəllim həm məndən qəbul imtahanı götürmüşdü, həm də ikinci kursda müəllimim idi. Səməd Vurğunun "Zamanın bayraqdarı" poeması təzə çıxmışdı. Mənim də biletimə bu poema düşüb. Mir Cəlal müəllim soruşdu ki, poemanı oxumusan? Dedim ki, bəli, oxumuşam. Dedi poema haqqında nə deyə bilərsən? Cavab verdim ki, poema 8 fəsildən, 800 misradan ibarətdir, birinci fəsil "İnsan ucalır" adlanır. "Yadında qalan misralar varmı" - deyə soruşdu. Dedim bəli.

Çılpaq çiynimizdə dağ boyda yüklər
Süründük can verən ətəlt kimi.
Alın tərimizi içdi böyüklər,
Gümüş qədəhlərdə bir şərbət kimi,
Süründük can verən ətəlt kimi.

Poemadan nümunə dedikdən sonra soruşdu: əsərin qəhrəmanı kimdir? "Kommunist Partiyasıdır" - deyə cavab verdim.

**- BDU-nun İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri vəzifəsində çalışırsınız. Bu mərkəz haqqında da danışardınız. Mərkəz necə yarandı?**

- İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzi Heydər Əliyev tərəfindən açılıb. Çünki 1998-ci ildə Bakıda "İslam sivilizasiyası Qafqazda" adlı bir beynəlxalq simpozium keçirildi. İslamşünaslıqla bağlı məsələ məni çox cəlb etdi. Azərbaycanda ilk elmlər doktoru professoram ki, bu barədə çox dəyərli tövsiyələr yazıb Heydər Əliyevin yanına getmişəm. Heydər Əliyevlə 17 dəfə görüşüm olub. Heydər Əliyev məni qəbul etdi və tövsiyələrimlə tanış oldu. Dedi ki, mən bilirdim ki, siz belə edəcəksiniz. Köməkçisinə dedi ki, Misir Mərdanovu mənimlə birləşdir. Misir Mərdanov da onda təhsil naziri idi. Dedi ki, Misir müəllim, professor Əsədulla Qurbanov mənim yanımdadır, çox gözəl tövsiyə xarakterli məktubla gəlib, dərkənarla ona əməl elə. Təxminən o səpkili məktubu Akademiyanın keçmiş prezidenti Fərəməz Maqsudova da yazdı. Beləliklə, Bakı Dövlət Universitetində elmi şuranın qərarı ilə İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzi yaradıldı, Heydər Əliyevin tövsiyəsi ilə həmin mərkəzin rəhbəri oldum. 1961-ci ildən bu ali məktəbdə müəllim kimi işləyirəm, mərkəz rəhbəri kimi isə 1998-ci ildən fəaliyyət göstərirəm.

**- Heydər Əliyev bu mərkəzin fəaliyyətinə xüsusi önəm verirdi.**

- Bəli. Heydər Əliyev bu mərkəzin geniş fəaliyyət göstərməsinə ciddi dəstək verirdi. Deyim ki, sonrakı dönəmlərdə mərkəz bağlanmaq təhlükəsi ilə üzləşmişdi. Abel Məhərrəmov rektor olduğu dövrdə mərkəzi bağlamaq istəyirdi. Ona etiraz edib bildirdim ki, bu mərkəz ulu öndərin xeyir-duası ilə yaradılıb, onu bağlamaq olmaz. Heydər Əliyev 1998-ci ildə keçirilən "İslam sivilizasiyası Qafqazda" elmi simpoziumunda çox qiymətli fikirlər bildirmişdi. O fikirləri xatırlamaq istəyirəm. "Azərbaycanda islamşünaslıq sahəsində 20-ci əsr, demək olar ki, tamam itirilib. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycanın Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, elmi-tədqiqat institutları bu sahədə xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəm və bunlar üçün hər cür şərait yaradacağam, buna arxayın olun". Bundan sonra mən sözügedən təklifləri yazıb yanına getdim və bu mərkəz də açıldı. Bu mərkəzin yaradılmasında bizim məqsədimiz ulu Məhəmməd Peyğəmbərin saf islamını və əsasını təşkil edən müqəddəs Quranı elmilik, obyektivlik, məntiqlilik, dünyəvilik baxımından tədqiq, tədris etməkdən ibarətdir. Bu mərkəzlə bağlı bir neçə əsərim çap olunub, burada 12 əməkdaş çalışır.

**- BDU-nun həyatında nə dəyişib, nə yeniliklər baş verib?**

- Əvvəla BDU Azərbaycanda elmin, təhsilin, mədəniyyətin məbədgahıdır. Bu ali məktəb ötən 100 il ərzində elə kadrlar yetişdirib ki, onlar dünyaşöhrətli alimlərdir. Universitetin 100 illik həyatında bu illər ərzində çox şey müsbət mənada dəyişib. Bu gün respublika alimlərinin böyük bir qisminin çalışdığı BDU-da 300-dən artıq elmlər doktoru, professor, 100-dən çox, o cümlədən, AMEA-nın 11 həqiqi üzvü, 11 müxbir üzvü, çoxsaylı elmlər namizədi-fəlsəfə doktoru, dosent 20 mindən artıq tələbənin təlim-tərbiyəsi ilə məşğul olur. Bundan təcrübəli 100 nəfəri dövlətin ali mükafatlarına layiq görülüb. 30 nəfərə yaxın əməkdar elm xadimi, 10 nəfərdən çoxu Prezident təqaüdçüsü, xeyli sayda olanı Milli Məclisin üzvüdür. Hazırda BDU-da iki institut: Tətbiqi Riyaziyyat və Fizika Problemləri İnstitutu, 16 fakültə, 100-dən çox kafedra, laboratoriya, mərkəz, muzey, kollec, şöbə və s. fəaliyyət göstərir.

Bu gün işıqlı və geniş auditoriyalarda müasir informasiya-kommunikasiya texnologiyalarından sərbəst istifadə edən, dünyaşöhrətli alimlərin yüksək səviyyəli mühazirələrini dinləyən, yeni avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda elmin və texnikanın nailiyyətlərinə yiyələnən tələbələr təhsil alırlar.

Biz istəyirik ki, BDU bundan sonra da Cümhuriyyətin adına layiq ali məktəb kimi fəaliyyətini davam etdirsin.

**- BDU-nun dünyaşöhrətli məzunlarından danışdınız. Kimləri xatırlaya bilərsiniz?**

- BDU-nun ən görkəmli məzunu dahi Heydər Əliyevdir.



## "Universitetin 100 illik həyatında bu illər ərzində çox şey müsbət mənada dəyişib"

Heydər Əliyevlə tanışlığımızla bağlı bir epizod danışım. 1957-ci il idi, ikinci kursda oxuyurdum. Universitetin "Lenin tərbiyəsi uğrunda" adlı çoxtirajlı qəzeti nəşr edilirdi. Redaktor mənə dedi ki, Tarix fakültəsində ən yaxşı oxuyan tələbələrdən müsahibə götür. O vaxt qayda belə idi ki, gərək rektor bunu biləydi. Yusif Məmmədəliyev dedi ki, mən etiraz etmirəm, çox sağ olun, amma gedin dekandan da soruşun, görün yaxşı oxuyan tələbələr kimlərdir. Tarix fakültəsinə getdim. Dekan Qəzənfər Mehdiyev idi, o, yerində yox idi. Onu Səidə İmanzadə əvəz edirdi. Allah hamısına rəhmət eləsin. Səidə xanım həm məndən qəbul imtahanı götürmüşdü, həm də mənə dərs deyirdi. Dedi ki, siz universitetin o biri korpusunun birinci mərtəbəsindəki 106-cı otağa (indiki İqtisad Universitetinin birinci mərtəbəsi - Ə.Q.) gedin, Tarix fakültəsinin beşinci kurs tələbələri orada oxuyur, indi onlara akademik Aslan Aslanovun estetika dərsidir. Get, Aslan müəllim kimi məsləhət görsə, müsahibəni ondan alın. Mən ora getdim. Aslan müəllim məni görüb soruşdu ki, ay Əsədulla, nə əcəb səndən, bura gəlmisən? O mənə dərs deyirdi. Mən vəziyyəti ona danışdım. Tənəffüs idi. O mənə Heydər Əliyevi göstərib dedi ki, ən yaxşı oxuyan tələbəmiz Heydər Əliyevdir, müsahibəni ondan götür. Heydər Əliyevlə auditoriyaya qayıtdıq, o, mülki paltarda idi. Mən Heydər Əliyevə sual verdim ki, siz fəlsəfi fənlərdən hansını daha çox sevirsiniz? Dedi ki, estetikanı. "Nə üçün məhz estetikanı" - deyə soruşduqda cavab verdi ki, Aslan müəllim gözəllik haqqında elm olan estetikanın elə incə mətləblərini bizə öyrədir ki, mən Aslan müəllimi də, o elmi də sevirəm. Uzun söhbət etdik onunla. Yazı qəzetdə çap olundu.

**- Deyirsiniz Heydər Əliyevlə 17 dəfə görüşmüsünüz. O, ondan götürdüyünüz müsahibəni xatırlayırdımı?**

- Bəli, xatırlayırdı. Onun çox gözəl yaddaşı vardı, heç bir hadisə yadından çıxmırdı.

*Ardı var...*

***İradə SARIYEVA***

# Prezidentdən qadınlara "işləyin ki, maliyyə cəhətdən az asılı olasınız" tövsiyəsinin yönəldici gücü...

***Fatimə Hacıbəyli:*** *"Qadınlar istənilən sahədə çalışarkən həm ailə büdcəsinə dəstək olur, həm də hansısa sənəti öyrənib, onu yaşadırlar"*

**Hazırda dünyada, o cümlədən, ölkəmizdə çalışan qadınların sayı getdikcə artmaqdadır. Dünya statistikasına nəzər salsaq, qadın məşğulluğunun ən yüksək olduğu ölkə hər yüz qadından 71-nin çalışdığı Danimarkadır. Növbəti sırada 70 faizlə İsveç, 66 faizlə Hollandiya, 65 faizlə Finlandiya, 62 faizlə İngiltərədir. Onların çalışma faizinin aşağı olduğu ölkələrdən biri 24 faizlə Türkiyədir.**

Qadınların çalışma səbəblərinə gəldikdə, ilk olaraq, ailəyə əlavə gəlirin daxil olmasını göstərmək olar. Araşdırmalara görə, son 20-30 ildə xüsusilə inkişaf etmiş ölkələrdə qadınların işə cəlb olunmasında artım olub. Açıqlanan statistik rəqəmlərə əsasən, məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 29,1 min nəfər olub, onların 39,2 faizini qadınlar təşkil edib.

Sevindirici haldır ki, ölkəmizdə də əmək fəaliyyət ilə məşğul olan qadınların sayı artır. Azərbaycan qadınları bu gün dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir və bütün sahələrin inkişafına layiqli töhfələrini verirlər. Demək olar ki, respublikanın bütün sahələrində qadınlarımız təmsil olunurlar. Elə bir sahə yoxdur ki, orada Azərbaycan qadınının səsi eşidilməsin, onun fəaliyyəti şaxələnməsin. Azərbaycan qadını həm həkim, həm müəllim, həm memar, həm dövlət qulluqçusu, həm də ictimai-siyasi xadimdir. Bu və ya digər amilləri özündə cəmləşdirən qadınlarımızın nüfuzu günü-gündən artmaqdadır.

Bununla yanaşı, qadınlarımız toxuculuq, xalçaçılıq və digər sahələrə də maraq göstərirlər. Tarixən Azərbaycan qadınlarının hazırladığı xalçalar tək ölkəmizdə deyil, eyni zamanda, xarici ölkələrdə yaşayanların da diqqətini cəlb edib.

Məlumdur ki, ölkəmizdə xalçaçılıq inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin göstərişinə əsasən, bölgələrdə xalçaçılıq müəssisələri yaradılaraq əhalinin ixtiyarına verilir.

Bu günlərdə "Azərxalça" ASC-nin Qəbələ filialı açılıb. Açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev müəssisənin qadın kollektivinə tövsiyələr verib, qadınlara uğurlar arzulayıb: "Arzu edirəm ki, bu müəssisədə yaxşı işləyəsiniz. Həm ailə büdcəsinə töhfə verəsiniz, həm də ərlərdən bir qədər az asılı olasınız. Və burada gözəl sənətimizi yaşadasınız".

Dövlət başçısının qadınlara əmək fəaliyyəti ilə məşğul olmaq və həyat yoldaşlarına maddi baxımdan yardımçı olmaq tövsiyəsi ölkənin ictimai-siyasi xadimləri tərəfindən yüksək dəyərləndirilir.

"Vəfa" Sosial Problemlərin Həllinə Dəstək İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bildirdi ki, ölkənin sosial-iqtisadi həyatının elə bir sahəsi yoxdur ki, orada qadınlar fəal iştirak etməsinlər. Bu gün Azərbaycan qadınları tək rəhbər vəzifədə deyil, eyni zamanda, qeyri-neft sektorunun müxtəlif sahələrində çalışmağa maraq göstərirlər: "Son illər Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar, o cümlədən, unudulmuş ənənəvi kənd təsərrüfatı sahələrinin bərpa edilməsi, keçmiş şöhrətinin qaytarılması böyük əhəmiyyət daşıyır. Bu gün ailənin başçısı da, xanımı da öz evindədir və hər ikisinin iş yeri var. Başqa sözlə desək, Azərbaycan qadını digər ölkələrə iş dalınca gedən ərinin nə vaxt evə pul göndərəcəyini gözləmir, yaxud özü də həyat yoldaşı ilə Rusiyaya, Ukraynaya, Qazaxıstana, Türkiyəyə getmək məcburiyyətində qalmır. Bu gün kəndli qızlar şəhərə gəlib özlərinə iş axtarmaq fikrinə düşmürlər. Torpağa bağlı olan, bağ-bostan becərən kənd qadını dolanmaq üçün çıxış yolunu qutab bişirib satmaqda, xırdavat alveri etməkdə görmür. Pambıq tarlası, üzüm bağı, tütün plantasiyası yenidən əmək meydanına, çörək təknəsinə çevrilib. Məhz bu səbəbdən də dövlət başçısı bölgələrdə olarkən qadınlar onlar üçün belə bir şəraitin yaradıldığına görə məmnunluqlarını bildirir, minnətdarlıqlarını söyləyirlər".



*"Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan qadını digər ölkələrə iş dalınca gedən ərinin nə vaxt evə pul göndərəcəyini gözləmir"*

Birlik sədrinin sözlərinə görə, xalçaçılıq bizim milli sənətimizdir, milli sərvətimizdir. Azərbaycan xalqı bu sənəti əsrlər boyu yaşadıb. Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində sərgilənir.

Xalçaçılığın ölkə sənayesində əhəmiyyətli yer alması qadınların işləməsi üçün yeni imkanlar yaradıb: "Məlumdur ki, "Azərxalça" ASC-nin istifadəyə verilən filiallarında yüzlərlə qadın işlə təmin olunub. Onlar toxuduqları xalçalarla həm qədim el sənətini yaşadır, həm öz dolanışıqlarını təmin edir, həm də Azərbaycan məhsulunun ixrac potensialını artırırlar.

**Prezident "Azərxalça" ASC-nin Qəbələ filialının açılışında iştirak edərkən qadınların çalışmasının ilk növbədə onların özü üçün əhəmiyyətli olmasını dilə gətirib. Qadınlar istənilən sahədə çalışarkən həm ailə büdcəsinə dəstək olur, həm də hansısa sənəti öyrənib, onu yaşadırlar".**

***Günel CƏLİLOVA***

# Məhkəmə qərarlarının yeni İcra Məcəlləsi hansı yeniliklər edəcək...

**Ölkəmizdə məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar yeni mexanizmlərin meydana gəlməsini tələb edir. Bilirik ki, uzun illərdir ölkəmizdə məhkəmə qərarlarının icrasında müəyyən boşluqlar var və bu boşluqların təmin edilməsilə bağlı Azərbaycanda İcra Məcəlləsi hazırlanır.**




***Şəmsəddin Əliyev:* "İcra Məcəlləsinin hazırlanması olduqca mütərəqqi bir addımdır"**

***Adəm Məmmədov:* "Bu məcəllənin hazırlanması onu göstərir ki, gələcəkdə icra qaydaları daha da sərtləşdiriləcək"**

Ədliyyə Nazirliyindən mətbuata verilən məlumatda məhkəmə qərarlarının icrası sahəsində hazırkı vəziyyət və yeniliklər, icra fəaliyyətini tənzimləyəcək İcra Məcəlləsinin işlənib hazırlandığı, "Elektron icra" informasiya sisteminin tətbiqi qeyd olunub. 3 aprel fərmanının icrası barədə, həmçinin, icra xidmətində iş həcminin kəskin artaraq bu ilin 9 ayında 776 mini ötməsi ilə əlaqədar məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən, icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq praktikanın öyrənildiyi və pilot qaydada tətbiq ediləcəyi barədə məlumat verilib.

Məhkəmə qərarlarının yeni İcra Məcəlləsi hansı yeniliklərə səbəb olacaq?

Tanınmış hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, İcra Məcəlləsinin hazırlanması vacib məsələdir. "İcra məmurlarının fəaliyyətini tənzimləyən normativ sənəd var. Bu istiqamətdə İcra Məcəlləsinin hazırlanması isə bu sahədə aparılan islahatların nəticəsidir. Bu gün alimentlə bağlı problemlər var. Yeni məcəllə imkan verəcək ki, məhkəmə qərarı ilə aliment verməli olan şəxsə qarşı daha sərt tədbirlər görülsün, onların ölkədən çıxışına və s. məhdudiyyət qoyulsun. Bu məcəllə qəbul edildikdən sonra məhkəmələrin çıxardığı qərarların icrasında problemlər, əngəllər olmayacaq. Hesab edirəm ki, İcra Məcəlləsinin hazırlanması olduqca mütərəqqi bir addımdır və biz bunun müsbət nəticələrini gələcəkdə görəcəyik" - deyə Ş.Əliyev qeyd etdi.

Tanınmış hüquqşünas, vəkil Adəm Məmmədov da hesab edir ki, İcra Məcəlləsinin hazırlanması bu sahədə mövcud olan bir sıra boşluqların aradan qaldırılmasına səbəb olacaq: "Mən özüm bir müddət icra məmuru işləmişəm, bu sahəyə bələdəm. İcra Məcəlləsinin hazırlanmasını çox yüksək qiymətləndirirəm. Çünki məcəllə qanunvericilikdən daha üstün hüquqi qüvvəyə malik olan aktdır. Bu məcəllənin hazırlanması onu göstərir ki, gələcəkdə icra qaydaları daha da sərtləşdiriləcək. Yəni məhkəmə qərarlarını icra etməyən şəxslərin məsuliyyət məsələsi daha da sərt olacaq. Çox adam aliment məsələsində, borc alınıb verilməsində, eləcə də digər məsələlərlə bağlı məhkəmə qərarları o qədər də sərt olmadığına görə bir sıra problemlər yaradır. Dövlətin adından çıxarılan qətnamələrin icrası İcra Məcəlləsindən sonra daha effektiv olacaq. Praktikada görürsən ki, alimenti ödəmək üçün vətəndaşın imkanları var, amma qərəzli olaraq, qəsdən, qıcıq yaratmaq, qarşı tərəflə konflikt yaratmaq məqsədilə alimenti ödəmək istəmir. Yeni məcəllə qəbul edildikdən, qanunvericilik sərtləşdirildikdən sonra belə halların qarşısı alınacaq. Düzdür, elə vətəndaşlar var ki, həqiqətən də aliment ödəmək imkanları yoxdur, amma imkanı olub, lakin ödəməyənlər də çoxdur. İcra Məcəlləsi qüvvəyə mindikdən sonra bir sıra problemlər öz həllini tapacaq. Vətəndaşın axtarışa verilməsi məsələsində məhkəmə məmurlarına hüquq-mühafizə orqanları əməkdaşlarının da kömək göstərməsi məsələsi də olacaq. Bu, qanunvericilikdə də var, Daxili İşlər Nazirliyinin əmri də var ki, icra məmurlarına kömək etmək polisin borcudur. Digər hüquq-mühafizə orqanlarının icra məmurlarına kömək göstərməməsi məsuliyyət yaradır. Məhkəmə hakimiyyətinin ədalətli qərar çıxarması, müstəqilliyi bu qərarın icrasından da çox asılıdır.

Əgər məhkəmə qərar çıxarırsa və o icra olunmursa, kağız üzərində qalırsa, onda məhkəməyə inam zəifləyir. İcra Məcəlləsinin hazırlanması mütərəqqi addımdır" - deyə A.Məmmədov qeyd etdi.

***İradə SARIYEVA***

# Elektrikə əlçatanlığa görə Azərbaycan dünyada ikinci - bu nə deməkdir...

**Son illər ölkəmiz müxtəlif göstəricilər üzrə beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlarda ön sırada qərarlaşır. Bu günlərdə Prezident İlham Əliyev Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi ilə bağlı tədbirdə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən zaman Azərbaycanın iqtisadi gücünün beynəlxalq agentliklərin diqqətində olduğunu dilə gətirib.**



***Pərviz Heydərov:* "Yeni müəssisələr, sosial obyektlər açılarkən onlar elektrik mühərrikinə sərbəst şəkildə qoşulurlar"**

Prezident qeyd edib ki, Dünya Bankının, Davos Ümumdünya Forumunun hesabatlarında göstərilir ki, elektrik enerjisinə əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir: "Baxın görün, dünyada nə qədər inkişaf etmiş ölkələr var. Onların arasında, bütün dünya ölkələri arasında biz ikinci yerdəyik. Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək".

Elektrik enerjisinə əlçatanlıq əmsalına görə ölkəmizin ikinci yerdə olmasına münasibət bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkədə sahibkarlığın inkişaf etməsi üçün dövlət tərəfindən hər bir şərait yaradılıb. Sahibkarlığın inkişafı üçün müvafiq şərait yaradılmaqda davam edir: "Yeni müəssisələr, sosial obyektlər açılarkən onlar elektrik mühərrikinə sərbəst şəkildə qoşulurlar. Eyni zamanda, kommunal xidmətlərdən istifadənin yüngülləşdirilməsi üçün prosedurlar sadələşdirilib. Sahibkarlar çox vaxt sərf etmədən elektrik enerjisindən sərbəst şəkildə istifadə edə bilirlər.

***"Beynəlxalq maliyyə qurumları, reytinq agentlikləri ölkəmizdə biznes şəraitinin inkişaf etdirilməsi ilə bağlı göstəriciləri qiymətləndirərkən..."***

**Sahibkarlar qısa müddət ərzində müəssisələrini elektrik enerjisi ilə təmin edə bilirlər. Bu da beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin diqqətini cəlb edir. Onlar hər zaman ölkəmizdə biznes şəraitinin inkişaf etdirilməsi ilə bağlı göstəriciləri qiymətləndirərkən sahibkarların sərbəst şəkildə elektrik enerjisinə qoşulmasını, bir sözlə, onlar üçün yaradılan şəraiti nəzərə alırlar".**

***Günel CƏLİLOVA***

**Bakıdakı əksər iri ərzaq mağazasında, eləcə də bütün bazarlarda müxtəlif şirkətlərə məxsus ağartı məhsulları satılır. Əsasən də "İvanovka", "Slavyanka", "Şamaxı" və "Qəbələ" adı altında müxtəlif qatqılı ağartı məhsulları satışa çıxarılır. Bu günlərdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ağartı məhsulları ilə bağlı marketlərdə monitorinq keçirib.**

# Dörd növ "tvoroqlar"da virus aşkarlanıb...




## *Eyyub Hüseynov: "İvanovka" adı ilə istehsal olunan malların hansının təmiz olduğu ictimaiyyət üçün aydınlaşdırılmalıdır"*

> *"Uzun müddətdir bir sıra gizli sexlərdə quru süddən, mənşəyi məlum olmayan südlərdən "İvanovka" mal nişanı adı altında ağartı məhsulları istehsal olunur"*

AQTA tərəfindən Binəqədi rayonunda fəaliyyət göstərən fiziki şəxs Muradov Elxan Mürşüd oğluna məxsus süd məhsulları istehsalı sexində aparılan yoxlama zamanı texniki normativ hüquqi aktların tələblərinin pozulması faktları aşkar edilib. Belə ki, "İvanovka", "Slavyanka", "Şamaxı" və "Qəbələ" adı altında müxtəlif qatqılı ağartı məhsullarının tərkibində insan həyatına təhlükə yaradan konservantların olduğu aşkar olunub.

Məhsulun markalanmasında "İvanovka" coğrafi adından istifadə etməklə istehlakçıların aldadılması və hüquqlarının pozulması faktı üzə çıxıb. Emal prosesində qəbul edilən xammal və yarımfabrikatların təhlükəsizlik və keyfiyyət göstəricilərinin yoxlanılmadığı müəyyən olunub.

Məlumdur ki, Bakıdakı əksər iri ərzaq mağazasında, eləcə də bütün bazarlarda "İvanovka məhsulları" adı altında şıdırğı satış həyata keçirilir. "İvanovka malları" kimi təqdim edilən yağ, pendir, xama, qaymaq, süd, qatıq və sair ağartı məhsullarına alıcıların müsbət rəyi az deyil. Böyük əksəriyyət bu qidaların İsmayıllı rayonunun malakanlar yaşayan məşhur İvanovka kəndindən gətirildiyini düşünərək, onları keyfiyyətli və qatqısız ağartı məhsulları kimi almağa tərəddüd etmir. Amma, əslində, heç xəbərimiz də yoxdur ki, "İvanovka" brendi altında süfrələrimizi bəzəyən bu məhsullar saxtadır. Axı İvanovkadakı Nikitin adına balaca bir kolxoz hər gün min tonlarla ağartı məhsullarını necə istehsal edə bilir ki, Bakı və digər şəhərlərdə, hətta rayonlarda belə, bütün ticarət obyektlərinə çatdırsın?

Qeyd edək ki, bu gün bazar və dükanlarda "İvanovka şoru", "Şamaxı şoru", "Slavyanka şoru", "Qəbələ şoru" markası ilə satılan məhsullara rast gəlirik. Eynilə bu adlarda qaymaq və digər ağartı məhsulları da var. Danılmaz faktdır ki, mağazalarda bu cür qidalar kifayət qədərdir. Qiymətləri isə fərqli olur.

Məsələ ilə bağlı fikir bildirən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, uzun müddətdir bir sıra gizli sexlərdə quru süddən, mənşəyi məlum olmayan südlərdən "İvanovka" mal nişanı adı altında ağartı məhsulları istehsal olunur: "Uzun ömür İvanovka" və "Qafqaz İvanovka" MMC də Bakı ətrafında antisanitar şəraitdə mal istehsal edirlər. Həm "Uzun Ömür İvanovka", həm də "Qafqaz İvanovka"nın sahibkarları ilə görüşmüşəm.

Bu pis əməllərindən əl çəkmələri barədə ağsaqqal söhbəti aparmışam.

Lakin onlar buna məhəl qoymayıblar. Bu məhsulları alarkən diqqətli olmaq lazımdır. Ən əsası, "İvanovka" adı ilə istehsal olunan malların hansının təmiz olduğu ictimaiyyət üçün aydınlaşdırılmalıdır. Əks halda, Elxan Muradov kimi adamlar Binəqədidəki sexlərdə əhalinin orqanizminə ziyanlı olan maddələrdən hazırlanmış şor satmağa davam edəcəklər"

*Günel CƏLİLOVA*

---

**Cəmiyyət sürətlə inkişaf edir və yeniliklərin günü-gündən bir-birini əvəz etməsi fonunda bu gün internetin funksiyaları xeyli zənginləşib. İnternet üstündən alış-veriş etmək, yəni internet mağazaların açılması isə son illərə qədər xəyal kimi görünə bilərdi.**

# Xarici alış-veriş saytlarında Azərbaycan istehsallı mallar nə vaxt görünəcək...




## *Elşad Məmmədov: "Ölkəmizdə elektron ticarətin inkişaf etdirilməsi üçün ciddi proqram təminatı olmalıdır"*

> *"...bu sahədə ləngimə ölkə iqtisadiyyatına böyük zərər verə bilər"*

Ancaq bu gün dünyanın inkişaf etmiş ölkələrində elektron ticarət gündəlik həyat tərzinə çevrilməyə başlayır.

Azərbaycanda da son 10 ildə baş vermiş dəyişikliyi "elektron sıçrayış" adlandırmaq olar. Buna şərait isə ilk növbədə hüquqi bazanın mövcudluğundan yaranır.

"Elektron ticarət haqqında" Qanuna əsasən, Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin elektron ticarətlə məşğul olması üçün hüquqi baza yaranıb. İlk dövrlərdə Azərbaycanda elektron mağazaların olmaması, internet və digər informasiya-kommunikasiya texnologiyalarının (İKT) lazımi səviyyədə inkişaf etməməsi elektron ticarətin yaranmasına və inkişafına da mənfi təsir göstərirdisə, son illər bu sahədə vəziyyət xeyli dəyişib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə 2-ci Bakı Elektron Ticarət Forumunda çıxışı zamanı bildirib ki, ölkəmizdə elektron ticarətin inkişaf dinamikası yüksək olsa da, internet istifadəçilərimiz əsasən tanınmış xarici elektron ticarət platformalarından sifarişlər edirlər: "Məqsədimiz daha çox daxili bazarda elektron ticarətin payını artırmaq, eyni zamanda, milli məhsullarımızın xarici bazarlara çıxarılmasında elektron ticarəti təşviq etməkdir".

Maraqlıdır, yerli məhsullar xarici elektron ticarət saytlarına niyə çıxarılmır? Elektron ticarətdə milli məhsulların satışa çıxarılması üçün nə etmək lazımdır?

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov bildirdi ki, Azərbaycanda elektron ticarətin inkişafına ciddi ehtiyac var: "Çünki bu gün elektron biznes dünya üzrə həyata keçirilən ticarət əməliyyatlarının çox böyük hissəsini özündə birləşdirir. Bu səbəbdən də ölkəmizdə uyğun platformaların yaradılması zəruridir.

Hazırda elektron ticarət ümumi ticarət əməliyyatlarının çox böyük hissəsini təşkil edir. Bu sahədə ləngimə ölkə iqtisadiyyatına böyük zərər verə bilər. Bu baxımdan müvafiq platformaların yaradılmasına və genişləndirilməsinə ehtiyac var. Bunun yaradılması üçün investisiyalar lazımdır. Dövlətin pul-kredit siyasəti və vergi sistemində atacağı stimullaşdırıcı addımlar məqsədəmüvafiqdir".

Həmsöhbətimiz hesab edir ki, bu sahənin inkişaf etdirilməsi üçün ciddi proqram təminatı olmalıdır. Bununla yanaşı, məhsulların göndərilməsi sisteminin onlayn qaydada izlənməsi prosesi üzrə sistem tərtib olunmalıdır.

Sifarişlər və ticarət dövriyyəsinin həcmi artdıqca, informasiya təminatı, təhlükəsizliyi ilə bağlı məsələlər mürəkkəb yanaşma tələb edəcək. Təəssüf ki, ölkəmizdə fəaliyyət göstərən elektron ticarət platformaları buna hazır deyil. Bu sahənin inkişaf etdirilməsi üçün elektron ticarət platformasına investisiyalar yatırılmalıdır.

*Günel CƏLİLOVA*

№ 193 (4091) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

31 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# 95 yaşlı amerikalı bioloqdan inək südü barədə şok iddia...

**Əsrlərdir hər damlası kiçikdən böyüyə lazımlıdır, orqanizm üçün şəfadır, deyib içdiyimiz inək südü barədə amerikalı məşhur biokimyaçı professor Colin Kampbell süd içənləri dəhşətə gətirəcək açıqlama verib.**

"Medicina.az" bildirir ki, alim südün içində olan kazein maddəsinin kanserogen olduğunu bildirərək, südün müasir insan üçün ən təhlükəli qida olduğunu bildirib. Colin Kampbell Çin Tibb Akademiyası, Cornell Universiteti və Oksfordun birgə yürütdüyü araşdırma ilə bütün ənənələri pozub. "Kazein bu günə qədər xərçənglə ən güclü bağlantısı və əlaqəsi olan maddədir, o bədəndə çox yavaş parçalanır və parçanlanma prosesi orqanizmin



sistemlərinə zərər verir", - deyə professor süd istehsalçılarının tənqidinə və hücumlarına qarşı cavab verib. Məsələ bundadır ki, kazein həll olunarkən "casomorphin" deyilən maddə çıxır ki, bu da beyinə mənfi təsir edir. Beyin hər süd tərkibli qida qəbul edərkən daha da südə bağlanır və ciddi süd asılılığına səbəb olur. "Süd sümükləri bərkidir" fikri isə mifdir. Süddəki kalsium əksinə, sümük əriməsinə səbəb olur. Kazein maddəsi inək südünün yüzdə 90%-də var və bu heyvan protein olub, vücudda toplanaraq, sümükləri parçalayır. Süd üzdə, dəridə qaşınma, səpki verir, mədə xəstəliklərinə də səbəb olur.

## "Azercell" növbəti əmək yarmarkasında iştirak edib

**Ölkədə gənclərin məşğulluğunun artırılması istiqamətində keçirilən tədbirlərdə daim fəal iştirak edən "Azercell Telekom" MMC oktyabr ayının 30-u baş tutan əmək yarmarkasında xüsusi stendlə təmsil olunub.**

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) və Azərbaycandakı Amerika Ticarət Palatası (AMCHAM) tərəfindən birgə reallaşdırılan bu tədbirdə "Azercell"in İnsan Kapitalının İdarə Edilməsi Departamentinin mütəxəssisləri yarmarkanın iştirakçıları ilə görüşüb, onların suallarını cavablayıblar. Gənclərə şirkətdə mövcud olan vakansiyalar, hər il ənənəvi olaraq tələbələr üçün təşkil edilən təcrübə və təqaüd proqramları haqqında geniş məlumat verilib.

Məlumat üçün bildirək ki, cari ilin may ayında "Azercell" şirkəti rəqəmsallığa doğru dəyişən strategiyası çərçivəsində ilk dəfə olaraq "Azercell-Lab" - ödənişli təcrübə proqramına qəbul elan edib. Tələbələrə "İT-lab" və "Biznes-Lab" inkubasiya mərkəzlərində təcrübə keçərək, peşəkar mühitdə karyera qurmaq fürsəti verilib. Fəaliyyətində dinamik və dəyişkən texnologiyaları tətbiq edən şirkət, laboratoriyaların gənc rezidentlərinə nəzəri biliklərindən yararlanaraq şirkətin real layihələrində iştirak üçün şərait yaradıb. Təcrübəçilər 6 ay müddətində biznes və İT sahələrində zəngin təcrübəyə malik olan aparıcı ekspertlərlə birlikdə çalışmaq və rəqəmsal dünyanın ən son trendləri ilə daha yaxından tanış olmaq fürsəti əldə ediblər. Həmçinin, sentyabr ayında tələbələrin fəaliyyətinə dəstək olmaq məqsədilə "Azercell Telekom" 2020-ci il üçün Tələbə Təqaüdü Proqramına ərizələrin qəbuluna başlayıb. "Rəqəmsal dünyanı "Azercell"lə kəşf et" şüarı altında keçirilən proqramın qalibləri akademik bilikləri, dünyagörüşü, elmə, təhsilə həvəsi və digər meyarlar əsasında seçiləcək. Qaliblər təhsil ilinin sonunadək "Azercell"dən 200 AZN məbləğində aylıq təqaüd ilə təmin ediləcəklər. Hazırda Tələbə Təqaüdü Proqramının seçim proseslərinə start verilib.

"Azercell"in İnsan Kapitalının İdarə Edilməsi Departamentinin təqdim etdiyi ən son yenilikləri "Azercell Recruitment Team" LinkedIn səhifəsindən izləyin!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Əliyev Kənan Lütvi oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hacıağayev Yaşar Dadaş oğlunun adına, Bakı şəhəri, Abşeron rayonunda yerləşən, reyestr nömrəsi 308011025000 olan 3 sot torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şəfiyeva Esmira Tərlan qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Əliyev küçəsi 26, bina 5, blok 2, mənzil 500 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın baş sponsorluğu ilə "Breyn Rinq" yarışı davam edir

**Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar"ın baş sponsorluğu ilə ölkənin ən maraqlı intellektual yarışı olan "Breyn Rinq"in 14-cü mövsümü davam edir.**

11 universitet və 15 region komandası arasında gedən gərgin mübarizədə oktyabr ayının qalibi "Nar" komandası olub. Hər il olduğu kimi, bu il də mobil operator intellektual verilişin izləyicilərinə hədiyyə qazanmaq şansı verir. Belə ki, veriliş efirdə yayımlandığı zaman "Nar"ın "Facebook" səhifəsində qoyulmuş suala ən tez cavab verənlər hədiyyə qazana bilər. Oktyabr ayı ərzində səhifədə paylaşılan suala ən tez cavab verənlər Rahil Dadaşlı, Orxan Abbasov, Mahira Sadıqova, Əli Məmmədov, Elcin Allahverdili və Niko Sadıqovdur.

Qeyd edək ki, yarış hər həftənin bazar günü, saat 20:00-da İctimai Televiziyada yayımlanır. Oyun yanvarın əvvəlinə qədər davam edəcək. Bu mövsüm isə komandalar "Bilik" kuboku uğrunda mübarizə aparır. "Bilik" kubokunun qalibi ötən mövsüm "Nar" kubokunun qalibi olmuş "Nar" komandası ilə "Brain Ring 2019" Azərbaycan çempionu titulu uğrunda yarışacaq.

Qeyd edək ki, "Nar" gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafını stimullaşdırmaq məqsədilə müxtəlif intellektual oyunları dəstəkləyir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Maliyyə məsələlərinə bu gün aydınlıq gətirin. Tanıdığınız və dəyər verdiyiniz insanlara qarşı güc, kobudluq, təzyiqə əl atmayın. Ətrafınızdakı insanlar sizə qarşı deyillər və onlarla müvafiq formada danışsanız, yardım edəcəklər.



**Buğa** - Bu gün ən xırda təfərrüatlara və detallara diqqət verin. Gəldiyiniz nəticələrdə dəqiq və səlis olun. Bu gün başlayacağınız bir çox işlərdə uğur qazana bilərsiniz. Bir şərtlə ki, məşğul olduğunuz işə maraq göstərəsiniz.



**Əkizlər** - İşdə və şəxsi həyatda yeni münasibətlərə başlamaq üçün əlverişli gündür. İnsanlarla asanlıqla dil tapmağa çalışın. Onların sizdən gizlədikləri, söyləmək istəmədikləri məqamları təxminləməyə çalışın.



**Xərçəng** - Yeni, cazibədar işlə məşğul olmaq imkanı yaranacaq. Ətrafınızdakı insanların sizdə olmadığını düşündükləri istedadlarınız üzə çıxacaq. Qeyri-adi diqqət nişanələri, xoş sürprizlər ola bilər.



**Şir** - Gün ağırdır, gərgindir və yaşanan olaylardakı imkanlar artdıqca gərginlik də çoxalır. Qabriel Qarsia Markesin "fənd"indən istifadə edin, ciddi emosiyaları zəiflədin. Maliyyə məsələlərində xüsusilə ehtiyatlı olun.



**Qız** - Yaxın ətrafınızdakı insanlar planlarınız və ideyalarınızın hamısını dəstəkləməyəcəklər. Tələsməyin. Emosionallığınız və çılğınlığınız bu gün münasibətlərin harmoniyasını poza bilər.



**Tərəzi** - Bu gün sizin üçün mühüm dövrlərdən biridir. Günəş və Plutonun tutduqları mövqelər bundan xəbər verir. Önəmli işin birindən imtina edib, başqasına başlayaraq sizin üçün ən əhəmiyyətli olanı seçin.



**Əqrəb** - Bu gün qarşınızda çox yaxşı peşə imkanları açılacaq. Tərəfdaşınıza və sizə sərfəli olan əməkdaşlıq başlaya bilər. İşdə qərarlar asanlıqla verilir, dinamik çalışırsınız. Yeni müttəfiqlər və tanışlar sizə xoş təsir bağışlayır.



**Oxatan** - Bu günün hadisələri müəyyən vasitə və yollarla keçmişinizlə bağlı olacaq. Ona görə də maraqlandığız suallara məhz həmin ələqələrdə cavablar arayın. Valideynlər və ailə üzvləriniz, qohumlarla anlaşılmazlıqlar mümkündür.



**Oğlaq** - Bu gün işdə uğur qazanmağa və peşəkar ambisiyalarınızı təmin etməyə çalışacaqsınız. İşinizə, əməyinizə müsbət təmayüllərin təsiri az olmayacaq. İmicinizə xüsusi diqqət yetirin.



**Dolça** - Bu gün istənilən işin, o cümlədən ən çətin problemlərin öhdəsindən gələcəksiniz. Heç bir səddə və maneəyə fikir vermədən məqsədinizə doğru irəliləyin. Bədxahlar sizə mane olmağa çalışacaq, amma uğursuzluğa düçar olacaqlar.



**Balıqlar** - Sizin üçün önəmli olan insanla aranızdakı fikir ayrılıqlarına rəğmən, yaranmış anlaşılmazlığı bu gün aradan qaldırmaq olar. Çalışdığınız insanlara ideyalarınızın pis olmadığını, onların perspektivə hesablandığını başa salın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Volqanın dibində qədim qayıq tapılıb



**Rusiyada - Samara yaxınlığında, Volqanın dibində qədim qayıq tapılıb.**

Alimlərin araşdırmaLARINA görə, tapıntı İvan Qroznu dövrünə aiddir. Oraya bir neçə ekspedisiya təşkil edilib. "Sea-news.az" bildirir ki, tədqiqatlar təxminən 10 metr dərinlikdə aparılıb. Axtarış zamanı sualtı ultrasəs skanerləri və sualtı robotdan istifadə olunub. Tədqiqatçılar heyrətə gəlib. Batmış gəminin ölçüsü 50 metrə, eni 20 metrə bərabərdir. Tapıntı yaxşı vəziyyətdədir. Əksər hissələri, zəncirləri, kanatları salamat qalıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.